Azərbaycan Qızıl Aypara Cəmiyyəti * Azerbaijan Red Crescent Society *

## İnsanlıq gücünün ehtiyaclara səfərbər olunması naminə!










# İLLİK HESABAT 2013

redcrescent.az

# MÜNDƏRİCAT

İNSANLIQ GÜCÜNÜN EHTİYACLARA SƏFƏRBƏR OLUNMASI NAMİNƏ! ---------- 3

FÖVQƏLADƏ HALLARA HAZIRLIQ VƏ CAVABVERMƏ ---------- 5

İCMAYA ƏSASLANAN SAĞLAMLIQ ---------- 9

İNFORMASİYA VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR ---------- 12

TƏŞKİLATİ İNKİŞAF ---------- 17

GƏNCLƏR VƏ KÖNÜLLÜLƏR ---------- 19

İQTİSADİ TƏHLÜKƏSİZLİK ---------- 23

FANDREYZİNQ VƏ GƏLİR- GƏTİRMƏ ---------- 24

İCMALARIN İNKİŞAFI ---------- 26

HUMANİTAR YARDIM ---------- 27

MİQRASİYA ---------- 29

SİLAHLARA QARŞI MÜBARİZƏ ---------- 31

AXTARIŞ XİDMƏTİ ---------- 33

MALİYYƏ HESABATI ---------- 35

# İNSANLIQ GÜCÜNÜN EHTİYACLARA SƏFƏRBƏR OLUNMASI NAMİNƏ!



Azərbaycanda hamıya çox tanış olan 93 illik humanitar missiyalı və bol fəaliyyətləri ilə şərəfli yol keçmiş Azərbaycan Qızıl Aypara Cəmiyyəti (Az.QAC və ya Milli Cəmiyyət) 2013-cü ilini də qürurla tamamladı. Qürurlu olmağa haqqı olan bu qocaman təşkilat 2013-cü ildə də öz humanitar missiyasını nizamnaməsi, 2011-2015-ci illərə hesablanmış Strateji Planı, Azərbaycan Respublikasının Prezidenti, Milli Cəmiyyətin fəxri üzvü zati-aliləri cənab İlham Əliyevin təşəbbüsləri ilə ərsəyə gələn Dövlət Qanunları, müxtəlif sərəncamlar, Nazirlər Kabinetinin, ayrı-ayrı dövlət qurumlarının Az.QAC haqqında imzalanan rəsmi sənədlər, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının (Beynəlxalq Hərəkat) müvafiq qətnamələri, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (Beynəlxalq Federasiya) 2020 Strategiyası üzərində qura bilmişdir.

Az.QAC öz humanitar fəaliyyətlərini əsasən, əhalinin kövrək qruplarına sosial sahədə dəstək verərək qurur. 2013-cü ildə də imkanlar səfərbər olunaraq, təşkilatın qeydiyyatında olan tənha qocalar, kimsəsiz uşaqlar və s. bu kimi kateqoriyaya aid olanlar müxtəlif humanitar kampaniyalar, aksiyalar və bayramlarda yardım azuqələrini əldə etmişlər.

2013-cü il həmçinin, Az.QAC-nin Beynəlxalq Hərəkat üzrə tərəfdaşları ilə də münbit şəraitdə birgə fəaliyyətinin həyata keçirilməsi ilə yadda qalmışdır. Bunlar Az.QAC - Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) və İngiltərə Qızıl Xaç Cəmiyyətinin cəbhə xəttinə yaxın ərazilərdə müharibənin insanlara vurduğu zərər nəticəsində yaranan iqdisadi böhranın aradan qaldırılmasına xidmət edən "İqtisadi Təhlükəsizlik" layihəsini və Milli Cəmiyyətimizlə Avstriya Qızıl Xaç Cəmiyyəti arasında təbii fəlakət riskləri böyük olan icmalarda risklərin azaldılmasına xidmət edən və birgə həyata keçirilən "Təhlükəsiz və Möhkəm İcmaların Qurulması" layihələridir. Həmçinin, Az.QAC özünün ənənəvi tərəfdaşları olan BQXK və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (Beynəlxalq Federasiya) ilə də 2013-cü ildə ən yaxşı şəraitdə birgə əməkdaşlıq modelini davam etdirmişdir. Beynəlxalq Hərəkat üzrə tərəfdaşlarımızın bütün istiqamətlərdə birgə işlərimizdən məmnun qalması bizi çox sevindirir. Hesabat dövrü həmçinin, Az.QAC-nin Beynəlxalq sahədəki fəaliyyətlərini də işıqlandırır. Belə ki, ən yadda qalan hadisə Az.QAC prezidenti kimi mənim rəhbərliyimlə 4 nəfərlik Nümayəndə Heyətinin Avstraliyanın Sidney şəhərində Beynəlxalq Hərəkatın Nizamnaməvi Görüşlərində müvəffəqiyyətli iştirakımız, bir çox dünyəvi vacib sayılan humanitar məsələlərə dair fəal çıxışlarımız, rəy və tövsiyyələrimiz olmuşdur.

2013-cü ildə Az.QAC özünün 2011-2015-ci illər üçün qəbul etdiyi Strateji Planını yenə də əsas hərəkət və fəaliyyət sənədi kimi nəzərdə tutaraq, bütün işləri orada qeyd olunan 5 əsas istiqamətdə qurmuşdur. Fəxrlə qeyd etməliyəm ki, Strateji Plan üzrə 2015-ci ildə tamamlanması nəzərdə tutulan 4-cü məqsəd - yəni Milli Cəmiyyətin yerli səviyyədə infrastrukturunun müasir tələblərə cavab verməsi vaxtından əvvəl 2014-cü ilin sonunadək öz həllini tapa biləcək. Bu və digər məqsədlər üzrə 2013-cü il ərzində çox sayda praktiki işlər, islahatlar aparılmışdır. Hesabat dövründə bütün Az.QAC əməkdaşları təşkilat tərəfindən sığortalanmışdır və könüllülərin sığortalanması ilə əlaqədar, Beynəlxalq Federasiya ilə məsləhətləşmələrə başlanılmışdır. Bu göstəricilər

həmçinin, Beynəlxalq Federasiyanın 2020-yə hesablanmış Strategiyasının əsas məqsədlərindən biri olan "Güclü Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin Qurulması"nı nəzərdə tutur.

Hər zaman olduğu kimi, 2013-cü ildə də Az.QAC prioritet inkişaf sahəsi kimi gənclərin və könüllülərin Milli Cəmiyyətin humanitar missiyasına qoşulması üçün əlverişli və maraqlı şərtlərin olmasını nəzarətdə saxlamışdır. 2013-cü ildən başlayaraq dünyanın hər bir yerindən Az.QAC-də könüllülük etmək istəyən gənclər və insanlar onlayn olaraq rəsmi internet səhifəmizdə qeydiyyatdan keçə bilərlər. Sevindirici haldır ki, 2013-cü ildə bu qaydada qeydiyyat könüllülərimizin sayını xeyli artırmışdır.

Hazırda dünyada ən böyük humanitar böhranlardan sayılan Miqrasiya problemini də nəzərə alan Milli Cəmiyyətimiz 2013-cü ildən başlayaraq tam öz daxili imkanları hesabına ölkəyə pənah gətirən və işləmək istəyən əcnəbilər üçün Azərbaycan dili kurslarını açmışdır. Az.QAC 2013-cü ildən ümumiyyətlə, özünün Miqrasiya üzrə fəaliyyətlərini artırmış və bu sahədə öz Rəyasət Heyəti tərəfindən "Miqrasiya Siyasəti"ni də qəbul etmişdir.

Hesabat dövründə Az.QAC özünün rəsmi tərəfdaşlarının sayını bir qədər də artırmışdır. Belə ki, qurum 700-dək yerli QHT-ni özündə birləşdirən, ölkənin ən böyük QHT koalisiyası olan Milli QHT Forumu və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti ilə rəsmi Anlaşma Memorandumu imzalamışdır. Hər iki vacib sayılan sənəd Az.QAC-nə hökumət və QHT-lərlə daha sıx şəkildə fəaliyyət göstərməyə şərait yaratmışdır. Milli Cəmiyyət bundan sonra da dövlət və vətəndaş cəmiyyəti strukturları ilə rəsmi tərəfdaşlıq əlaqələrini quraraq humanitar sahədə birgə fəaliyyət göstərməyi düşünür.

Az.QAC həm ölkə daxilində,həm də beynəlxalq səviyyədə güclü humanitar yardım göstərən təşkilat kimi fəaliyyət göstərməyi qarşısına məqsəd qoymuşdur. Bu istiqamətdə texniki işlər, müxtəlif tərəfdaşlarla görüşlər və s. 2013-cü ildə də reallaşdırılmışdır. Az.QAC-nin son illərdə Somali, İran, Türkiyədə təbii fəlakətlər zamanı müəyyən dəstək verməsi qurumun beynəlxalq arenada da humanitar yardım edə biləcək donor təşkilat kimi formalaşmasından xəbər verir. Az.QAC və Azərbaycan Respublikası Beynəlxalq İnkişaf Agentliyi (AİDA) arasında keçirilən görüşü bu qəbildən hesab etmək olar.
Sözsüz ki, həyata keçirilən və gələcəkdə həyata keçirilməsi arzu olunan bütün humanitar istiqamətlər üçün Milli Cəmiyyətimiz dayanıqlı maliyyə bazasını formalaşdırmalıdır. 2013-cü ildə Milli Cəmiyyətimiz gəlirgətirmə və fondların artırılması istiqamətində irəliyə doğru addımlar atmışdır. Milli Cəmiyyətə daxil olan maliyyə mənbələrinin müxtəlifliyi məsələsi gündəmdə olan strateji məsələdir. Bir çox yerli donor tərəfdaşlarla şəffaf əməkdaşlıq əlaqələri qurulmuşdur.

2013-cü il üçün təqdim etdiyimiz bu hesabatda konkret və real olaraq, hansı humanitar istiqamətlərdə və nə qədər ehtiyaclı insanın Az.QAC tərəfindən əhatə olunması haqqında ətraflı məlumatı əldə edə biləcəksiz.

Az.QAC daim şəffaflıq, düzgün hesabat və daha çox yardım etmək üçün fəaliyyətlərini genişləndirir.

Milli Cəmiyyətimiz adından 2013-cü ildə bizimlə birgə humanitar missiya üzrə fəaliyyət göstərən və bu sahədə dəstəyi olan hər bir insana, hökumət və qeyri-hökumət təşkilatlarına, biznes strukturlarına, beynəlxalq təşkilatlara, üzvlərimizə, gənclərimizə və könüllülərə öz təşəkkürümü bildirirəm.

**Dr. Novruz Aslanov**
**Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti,**
**Milli Məclisin deputatı**

# FÖVQƏLADƏ HALLARA HAZIRLIQ VƏ CAVABVERMƏ

**Məqsəd:**

2011-2015ci il üçün Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Strateji Planına uyğun olaraq, insan həyatını xilas etmək naminə, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını səfərbər etməklə, fəlakət və böhranlara daha hazırlıqlı olmaq və bununla da fəlakətlərdən sonra həm ölkə daxilində, həm də xarici ölkələrdə reabilitasiyaya nail olmaqdır.

**Fəaliyyətlər:**

2013-cü ildə müxtəlif növ fəlakətlərdən (zəlzələ, yanğın, sel-suların daşması, torpaq sürüşməsi və sairə) zərər çəkən insalara humanitar və psixoloji yardımlar göstərməkdə davam etmişdir. Həmçinin, il ərzində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsi tərəfindən Az.QAC-nin Regional mərkəzlərin və yerli bölmələrin fövqəladə hallara cavabvermə imkanlarını artırmaq məqsədilə bir sıra treyninq və seminarlar keçirilmişdir.

Az.QAC-nin FHHC şöbəsi 2013-cü ildə Neftçala, Göranboy, Saatlı, Mingəçevir, Gəncə, Kürdəmir, İsmayıllı, Ağsu, Quba rayonlarında, Sumqayıt, Bakı şəhərlərində və Buzovna qəsəbəsində zərərçəkmiş 123 nəfərdən ibarət, 25 ailəyə 12,526.36 manat məbləğində humanitar yardım göstərilmişdir.

2013-cü ilin sentyabr ayından başlayaraq, Az.QAC-in İcraçı Katibinin təşəbbüsülə yaradılmış işçi qrupuna Az.QAC-nin Fövqəladə Hallara Hazırlıq, Axtarış, Humanitar yardım, Təchizat, Miqrasiya, Sağlamlıq və Qayğı söbələri və İlk yardım sektoru rəhbərləri daxil olmuşdur. Keçirilən görüşlərdə Fövqəladə hallara hazırlıq və cavabvermə sahəsində işin keyfiyyətini gücləndirmək məqsədilə, Az.QAC-nin "Ehtiyat planının" tərtib olunması, Bakı regional mərkəzində Mobil könüllü dəstənin yaradılması, şöbələr arası inteqrasiya və s. istiqamətlər prioritet seçilmişdir.

19 noyabr 2013 –cü ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin FHHC şöbəsinin təşəbbüsü ilə Bakı şəhərində yerləşən "Paradise" otelində Sumqayıt Regional Mərkəzinin mobil könüllü dəstəsi üçün Fövqəladə hallar zamanı hərəkət üzrə təkmilləşdirici təlim keçirilmişdir. Fövqəladə hadisələrin nəticələrinin tez bir zamanda aradan qaldırılmasında mülki müdafiə və digər xilasedici qüvvələrin birgə idarə edilməsinin təşkili məqsədilə keçirilən təlimdə iştirak edən Az.QAC-nin Vitse prezidenti Qafar Əsgərzadə Cəmiyyətin bu sahədə gördükləri işlərdən söz açmışdır. Tədbirdə BQXK-nin Bakı nümayəndəliyinin məsul əməkdaşı R.Əlləzov və Az.QAC Katibliyinin müvafiq şöbələrinin rəhbərləri iştirak etmişlər.

**Təchizat üzrə:**

2013-cü ilin Yanvar – Dekabr aylarında Neftçala, Göranboy, Saatlı, Mingəçevir, Gəncə, Kürdəmir, İsmayıllı, Ağsu, rayonlarında, Sumqayıt, Bakı şəhərlərində və Buzovna qəsəbəsində zərərçəkmiş sakinlərə yardım göstərmək məqsədilə 6 cüt rezin çəkmə, 10 ədəd dəstmal, 26 mətbəx dəsti, 8 ədəd səyyar qaz plitəsi, 1 ədəd kanistr, 136 ədəd adyal, 4 yataq dəsti, 76 ədəd döşək, 5 gigiyenik dəst, 31 ədəd palaz, 59 ədəd yataq kisəsi, 26 ədəd əriştəkəsən, 21 ədəd böyük bel, 31 ərzaq bağlaması və 3 ədəd çadır paylanılmışdır.

**Qarşılıqlı əməkdaşlıq üzrə :**

İl ərzində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Fövqəladə Hallara Hazırlıq və Cavabvermə söbəsi müxtəlif növ fəlakətlərdən əziyyət çəkən insanlara yardım göstərilməsi ilə yanaşı, həm də tərəfdaşlarla fəlakət risklərinin azaldılması məqsdlə müxtəlif tədbirlərdə, seminarlarda və treyninqlərdə fəal iştirak etmişdir.

Avstriya İnkişaf Agentliyi və Avstriya Qızıl Xaç Cəmiyyətinin maliyyə və texniki dəstəyilə, Azərbaycan Qızıl Aypara Cəmiyyəti 2012-ci ilin dekabr ayından etibarən "Təhlükəsiz və möhkəm icmaların qurulması" layihəsinin icrasına başlamışdır. Bu 3 illik layihənin birinci ili İsmayıllı rayonunun Diyallı və Təzəkənd kəndlərini, ikinci ili İsmayıllı rayonu və digər 2 kəndini, üçüncü ili isə Zaqatala və onun 2 kəndini əhatə edir.

2013-cü ilin mart ayında Avropa otelində "Təhlükəsiz və möhkəm icmaların qurulması" layihəsinin rəsmi açılış təqdimatı keçirilmişdir. Təqdimat mərasimində ANAMA, İOM, UNDP və digər aidiyyatı olan təşkilatların və dövlət qurumlarının nümayəndələri iştirak etmişlər. Layihənin birinci ilində yerinə yetirilməli olan fəaliyyət istiqamətlərindən biri də




"İştirakçılığı təmin etməklə İmkanlılığın və Zəifliyin Qiymətləndirilməsi" olmuşdur.

Bu fəaliyyətdə əsas məqsəd, hədəf kəndlərində icma qruplarının, icma üzvlərinin iştirakçılılığını təmin etməklə kənd əhalisinin fəlakətə qarşı mövcud imkanlılığını və zəifliyini təyin edərək, fəlakət riskinin azaldılması istiqamətində fəaliyyət planını tərtib etmək və yerinə yetirməkdən ibarətdir.

Bu fəaliyyətin həyata keçirilməsindən öncə layihə çərçivəsində yaradılmış Kənd İcma Qruplarına "Fəlakət Riskinin Azaldılmasının (FRA) terminləri və konsepsiya" barəsində təlim keçirilmişdir. Daha sonra Kənd İcma Qruplarına "İştirakçılığı təmin etməklə İmkanlılığın və İmkansızlığın Qiymətləndirilməsi" (İİZQ) nədir, onun məqsədi, ondan istifadə qaydaları və onun üstünlüyü mövzusunda təlim keçirilmişdir. Kənd İcma Qruplarına İİZQ-nin tərkib hissəsi olan "Fövqəladə Hadisələrin (FH) Qiymətləndirilməsi Matrisi", "Həyati Vacib Elementlər", "İmkanlılığın və İmkansızlığın Qiymətləndirilməsi" və "Fəaliyyət Planının Tərtib Olunması" cədvəl və matrislər izah edilmişdir. Hər bir Kənd İcma Qrupları kiçik qruplara bölünərək, öz kəndlərindəki real vəziyyətə əsaslanan bu cədvəl və matrisləri doldurmuşlar. Doldurulmuş cədvəl və matrislər təqdim edilmiş, müzakirə olunmuş və orda müfaviq dəyişikliklər edilmişdir.

Bu mərhələdən sonra hər bir Kənd İcma Qrupu qrup müzakirələri aparmaq üçün kəndlərində yerli əhalidən ibarət 2 müxtəlif qrup təşkil etmişdir. Bu qruplar elə təşkil olunmuşdur ki, qrup üzvlərinin tərkibinə qadınlar da daxil olmaqla kənd əhalisinin ən imkansız üzvləri cəlb olunmuşdur. Qruplar təşkil olunarkən hər bir qrup üzvünün öz fikrini sərbəst ifadə etmə bacarığının olması da nəzərə alınmışdır. Kənd İcma Qruplarının dəstəyi ilə qrup müzakirələri aparılmış yuxarıda sadalanan cədvəl və matrislər doldurulmuş və kəndlərin təhlükəyə meyilli zonaların xəritəsi hazırlanmışdır. Bunun nəticəsində görülən bütün əhatəli işdən sonra, İsmayıllı rayonunun Diyallı və Təzəkənd kəndlərinin İmkanlılığın və İmkansızlığın İştiraklı Qiymətləndirilməsinə dair xüsusi təlimat kitabçası hazırlanıb və kifayət qədər nüsxədə çap edilib paylanılmışdır.

Bundan başqa, il ərzində "Təhlükəsiz və möhkəm icmaların qurulması" layihəsi çərçivəsində bir sıra tədbir həyata keçirilmişdir. Bunlardan "İlk yardım" təlimləri keçirilən zaman Kənd İcma Qruplarına İlk yardım çantalarının paylanılması, İcmalara (bel, bel (çalov), lom, araba, vedrə, iri çəkic, külüng, dəbilqə, mıxçıxardan, yanğınsöndürən, eynək, respirator, əlcək, kəndir və lebetka) kimi texniki avadanlığın verilməsi, fövqəladə hal zamanı özünü idarə etməsinə dair xüsusi məlumat və təlimat guşələrin hazırlanması, "Ailə Fövqəladə Hallara Hazırlıq Planı və Ailədə təhlükəsizlik", mövzularında icmalar üçün treyninq, "İlk yardim, Axtarış və Xilasetmə"yə dair simulyasiya təmin edilmişdir.

2013-cu ilin sentyabr ayının 9-11 tarixlərində

Gürcüstan Respublikasının Tiflis şəhərində Avstriya Qızıl Xaç Cəmiyyəti tərəfindən "Təhlükəsiz və möhkəm icmaların qurulması" layihəsi çərçivəsində "Şəhər şəraitində fövqəladə hallar zamanı risklərin azaldılması" mövzusunda təlim təşkil olunmuşdur. Təlimdə Az.QAC-nin "Təhlükəsiz və möhkəm icmaların qurulması" layihəsinin koordinatoru Elşən Səlimzadə, layihənin meneceri (FHHC şöbəsinin müdiri) Fərid Seyidzadə, layihənin hesabatçısı (İcraçı katibin müavini) Şaban Şayev, Az.QAC-nin İsmayıllı rayon bölməsinin sədri Tofiq Soltanov, Az.QAC-nin Zaqatala Rayon bölməsinin sədri Pərviz Mehdiyev, layihənin eksperti Faiq Tahirli (Oxfam təşkilatın əməkdaşı) və "Fövqəl" assosiasi-yasının prezidenti, professor Həbib Ocaqov iştirak etmişlər. Təlim beynəlxalq ekspertlər tərəfindən keçirilmışdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin tarixində ilk dəfə olaraq, Az.QAC ilə Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyi (İOM) arasında imzalanmış razılaşmaya əsasən, Diyallı və Təzəkənd kəndlərində yaradılmış icmalar üçün fəlakətlər və onun nəticələrinin aradan qaldırılması zamanı "Psixi Sağlamlıq və Psixososial Dəstək" mövzusunda Beynəlxalq ekspertlər tərəfindən 2013-cü ilin oktyabr ayının 3-4-də treninq keçirilmişdir. Tədbirin əsas məqsədi təbii və texnogen fəlakətlər nəticəsində yaranan fövqəladə hallar zamanı, İsmayıllı rayonunun Diyallı və Təzəkənd kəndlərində yeni yaradılan İcma Əsaslı Fövqəladə Hallara Hazırlıq və Cavabvermə qrupunun Psixoloji cəhətdən hazırlıqlı və dayanıqlı olması, yaranan çətinliklərin tez bir zamanda aradan qaldırılmasından ibarət olmuşdur.

30 avqust 2013-cü il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin tərəfdaşı olan Böyük Britaniyanın "Oksfam" Beynəlxalq humanitar təşkilatı "Park İnn by Radisson"otelində "İcma əsaslı fəlakət riskinin azaldılması"adlı layihəsində görülən işlər haqqında hesabat tədbiri keçirmişdir. Adı çəkilən tədbirdə Az.QAC-nın İcraçı Katibinin müavini Şaban Şayev və FHHC şöbəsinin müdiri Fərid Seyidzadə iştrak etmişlər.

20-21 noyabr 2013-cü il tarixində Bakı şəhərində yerləşən "Caspian Plaza" mehmanxanasında "Şərq Regionunda Avropa İttifaqının maliyyələşdirdiyi təbii və texnogen fəlakətlərin qarşısının alınması, hazırlıq və cavab tədbirləri üzrə Şərq Proqramı (PPRD East)" çərçivəsində "Fəlakətlərdən əvvəl, sonra və fəlakətlər zamanı əhalinin məlumatlandırılması sahəsində Qeyri-Hökumət Təşkilatları ilə təcrübə mübadiləsi" mövzusunda seminar keçirilmişdir. Seminar Fövqəladə Hallar Nazirliyi və PPRD East tərəfindən təşkil olunmuşdur. Seminarda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin müdiri Fərid Seyidzadə və Təchizat şöbəsinin müdiri Valeh Məhərrəmov iştirak etmişlər. Seminarda fövqəladə hallar zamanı əhalinin həssas təbəqəsinin məlumatlandırılması fəaliyyətinə QHT-lərin cəlb olunması, fövqəladə hallara cavabdeh orqanlarla təcrübə mübadiləsinin və müzakirələrin aparılması, icmalar səviyyəsində fəlakətlərin idarə olunması, mülki müdafiə sahəsində könüllülərin fəaliyyəti, risk xəritələrinin hazırlanması, Azərbaycan üçün Regional risk atlasının hazırlanması istiqamətində həyata keçirilmiş fəaliyyətlər, təbii və texnogen risklər barədə xəbərdarlığın artırılması və s. mövzularda mütəxəssislərin prezentasiyaları təqdim olunmuşdur.

25-27 noyabr 2013-cü il tarixində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (BQXQACF) Avropa zonası tərəfindən Macarıstan Respublikasının Budapeşt şəhərində "Benefesiarların qənaətetmə sorğusu" mövzusunda təlim keçirilmişdir. Təlimdə çoxsaylı Avropa, Qafqaz və Orta Asiya ölkələrindən nümayəndələr iştirak etmişlər. Həmin təlimdə AzQAC-nin FHHC şöbəsinin müdiri Fərid Seyidzadə iştirak etmişdir. Müzakirələr zamanı DREF əməliyyatlar sahəsində görülən işlər barəsində fikir mübadiləsi aparılmışdır, Kosovo, Qırğızıstan və digər olkələrin nümayəndələri tərəfindən "Benefesiarların qənaətetmə sorğusu" mövzusunda prezentasiyalar keçirilmişdir.



**Nailiyyət:**

Müxtəlif fəlakətlərdən zərər çəkmiş zavallı insanlara humanitar yardımlar üzrə:

2013-cü ildə Az.QAC tərəfindən müxtəlif növ fəlakətlərdən zərər çəkmiş 123 nəfərdən ibarət, ümumilikdə, 25 ailəyə 12,526.36 manat məbləğində humanitar yardım göstərilmişdir.

Az.QAC-nin 2011-2015-ci illərin Strateji planına əsaslanaraq, 2013-cü ildə müxtəlif fövqəladə hallara çavabvermə sahəsinin maddi-texniki bazasını gücləndirmək üçün müvafiq tədbirlər həyata keçirilmişdir. Onlardan biri də 370 ədəd ərzaq bağlamasının alınaraq, Az.QAC-in Mərkəzi anbarına təhvil verilməsindən ibarət olmuşdur.

| № | Regional Mərkəz | Ailə sayı | Neçə nəfər | Məbləğ |
|---|---|---|---|---|
| 1 | Bakı Mərkəzi Anbar | 25 | 123 | 12,526.36 |
| 2 | Cəmi | 25 | 123 | 12,526.36 |

**Problemlər:**

Hələ də xarici donorlardan asılılıq;

Fəaliyyətlər üçün kifayət qədər maliyyə vəsaitinin olmaması;

Fövqəladə hallara hazırlıq və cavabvermə üzrə milli Dövlət planının olmaması;

Telekommunikasiya üzrə mütəxəssisin olmaması;



# İCMAYA ƏSASLANAN SAĞLAMLIQ

**Məqsəd:**

Səhiyyə maarifi və səhiyyə xidmətləri vasitəsilə insanların təhlükəsiz həyat sürməsi naminə biliklərini artırmaq

**Fəaliyyətlər:**

BQXQACF-nın 2020-ci illər üzrə Strategiyasına əsasən, Az.QAC Sağlamlıq və qayğı şöbəsi tərəfindən Azərbaycan Respublikası Səhiyyə, Gənclər və İdman və digər Nazirlikləri, GHT ilə birgə “İcmaya əsaslanan sağlamlıq” proqramı çərçivəsində il ərzində əhalinin maarifləndirilməsi məqsədilə İİV/QİÇS, ürək-damar vərəm və s. kimi xəstəliklərlə bağlı təbliğat tədbirləri təşkil olunmuşdur.

AzQAC Qaradaq RB vasitəsilə Qaradağ rayonu Korgöz qəsəbəsində 197 saylı, Qızıldaş qəsəbəsində isə 180 saylı tam orta məktəblərində “AİDS-dan özünü qoru” adlı seminarlar təşkil olunmuşdur. Gənclər və İdman Nazirliyinin Qaradağ rayon şöbəsi tərəfindən təşkil olunmuş hər iki tədbirdə məktəbin 150-dən çox müəllim və yuxarı sinif şagirdi iştirak etmişdir. Tədbirlərdə Respublika QİÇS-lə Mübarizə Mərkəzi, Gənclər və İdman Nazirliyi, Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətləri Federasiya tərəfindən hazırlanan və dərc edilən əyani vəsaitlər (plakat, buklet) istifadə edilib, yeniyetmə və gənclərə paylanılmışdır.

2013-cü ildə 7 Aprel “Ümumdünya Sağlamlıq Günü” münasibətilə “Qan təzyiqinizə diqqət edin!” şuarı ilə tədbirlər keçirilmişdir.Bunda məqsəd əhali arasında ürək-damar xəstəliklərinin profilaktikasına, hər bir kəsin öz qan təzyiqini bilməsi məsələlərinə diqqəti cəlb etmək olmuşdur.

İl ərzində Az.QAC Sağlamlıq və qayğı şöbəsinin əməkdaşları və könüllüləri gənc həkim Gülarə Hacıyeva , Bakı Slavyan Universitetinin tələbələri Cavid Məsimli və Royal Xəlilov ilə birgə AzQAC Sabunçu Rayon Bölməsi və Azərbaycan Uşaq və Gənclər Sülh Şəbəkəsi ofislərində 7 Aprel “Ümumdünya Sağlamlıq Günü”ndə icmalarda hipertoniyaya həsr edilən maarifləndirici tədbirləri təşkil etmişlər. Hər iki tədbirdə 60 uşaq, yeniyetmə və gənclər iştirak etmişdir. Tədbir iştirakçılarına Ümum-dünya Səhiyyə Təşkilatı tərəfindən “Qan təzyiqinin yüksəlməsi” mövzusuna aid məlumatları prezentasiya şəklində təqdim edilmişdir. Qan təzyiqinin ölçülməsi qaydaları “Tonometr” aparat vasitəsilə tədbir iştirakçılarına nümayiş etdirilmişdir.

Həyatı boyu zorakılığa məruz qalan qızlar və qadınları məlumatlandırmaq məqsədilə il ərzində maarifləndirici tədbirlər təşkil olunmuşdur. Belə ki, Azərbaycan Dövlət Pedaqoji Universitetində və Sabunçu rayonunda yerləşən 96 saylı tam orta məktəbində “Qadın zorakılığı” mövzusunda görüşlər təşkil olunmuşdur. Az.QAC Dövlət Pedaqoji Universiteti bölməsi və Gender Mərkəzi ilə birgə həyata keçirilən tədbirdə Az.QAC Sağlamlıq və qayğı şöbəsinin nümayəndəsi və “Təmiz dünya” Qadınlara Yardım İçtimai Birliyinin nümayəndələri də iştirak etmişlər. Tədbirdə ÜST-ın savadsızlıq (məlumatsızlıq), uşaqlıq dövründə zorakılıq halları, ailədə valideynlər arasında zorakılıq halları (ailə həyatının tərzi ), spirtli içkilərin zərərli dərəcədə istifadəsi, münaqişələr zamanı miqrasiya kimi qadın zorakılığının risk amillərinin azaldılması haqqında məlumat qeyd edilmişdir.



### Vərəmə qalib gələnlər bizim aramızdadır.

İl ərzində icmaya əsaslanan sağlamlıqla bağlı fəaliy-yətlərdə dövlətə yardımçı rolunu oynayan Azərbaycan Qızıl Aypara Cəmiyyəti vərəmlə mübarizəyə yönəldilən tədbirlərə önəmli yer vermişdir. 2010-cu ildən başlayan Beynəlxalq Qızıl Xaç/Aypara Cəmiyyət-ləri Federasiyasının və ABŞ “Ely Lili” əczaçı şirkətinin texniki dəstəyilə Az.QAC “MDR TB (Dərmanlara Davamlı Vərəm xəstələri) mərhələsində olan xəstələrə ev şəraitində humanitar, psixo-sosial dəstək verməklə davamlı müalicəsinə nəzarət etmək” adlı layihə çərçivəsində təlimatlandırılmış 4 tibb bacısı 20 xəstəyə baş çəkmiş, dərmanların qəbuluna nəzarət etmişdir. Layihə çərçivəsində xəstə və onların ailə üzvlərinə psixoloji dəstək təşkil olunmuşdur.

Layihənin qiymətləndirməsi məqsədilə MDR-TB olan xəstələr, eyni zamada onlara tibbi xidmət göstərən tibb işçiləri arasında tibbi-sosial, psixoloji problemlərin, xəstəlik barədə məlumatlılıq, cəmiyyətdə münasibət və s. kimi məsələlərə aid sorğu aparılmışdır. Sorğuların təhlili göstərmişdir ki, 20 nəfərdən iki xəstə dün-yasını dəyişmiş, 5 nəfər uğurlu, 1 nəfər isə uğursuz müalicəni bitirmişdir. Digər 12 xəstə tibbi problem-lərdən ürək bulanma - 2, baş ağrıları - 3, mədə ağrısı - 3, eşitmə qabiliyyətinin 4 nəfər qeyd edilmişdir.

Sorğuda iştirak edən xəstələr öz həyatlarında olan məqamları bölüşərək, onların ətrafında olan qohum, qonşu, dostlara Vərəmə duçar olduqlarını bildirmək istəmədiklərini qeyd etmişlər. Sorğuda iştirak edən MDR-TB xəstələrin əksəriyyəti işsiz, onların ailədə maddi-sosial durumunun aşağı səviyyədə olmasını qeyd etmişlər. Xəstələrin 95%-i həm tibb müəssisələrində çalışan, həm Az.QAC-nin tibb bacılarının onlara göstərdiyi xidmətlərə və qayğıya görə öz razılıqlarını və müalicəni davam etdirəcəklərini bildirmişlər. Xəstələrin 80%-i onların sağlamlığına dərmanların mənfi təsiri haqqında məlumatlı olduqlarını və müalicə olunmaq və tam sağalmaq arzusunun yüksək və sağalmaqlarına inamlı olduqlarını qeyd etmişlər. Vərəmə duçar olar xəstələrin belə optimistik əhval-ruhiyyədə olması, Az.QAC apardığı fəaliyyətlərlə bağlı olmuşdur. İl ərzində Az.QAC layihədə iştirak edən MDR Vərəmli xəstələrə və tibb bacılarına Yasamal, Binəqədi, Nəsimi Rayon Bölmələri vasitəsilə Ramazan, Qurban Bayramları ilə əlaqədar humanitar yardım (ərzaq) paylanılmışdır. Hal-hazırda layihədə 15 xəstə, 3 tibb bacısı fəaliyyət göstərir.

## AzQAC-ın könüllü təmənnasız qan donorluğunun inkişafı sahəsində fəaliyyəti.

Az.QAC Sağlamlıq və qayğı şöbəsi tərəfindən 2011-ci ildə başlayan ölkədə könüllü qan donorluğunun inkişafı çərçivəsində “Gənc könüllü qan donorlar qrupu 25-şəbəkəsinin yaradılması” layihəsi 2013-cü ildə öz fəaliyyətini davam etdirilmişdir. Bu proqram daha çox gənclər üçün nəzərdə tutulduğundan, yeniyetmə və gənclər arasında sağlam, təhlükəsiz həyat tərzinin təbliği, təşviqatı və gənclərdən ibarət könüllü və təmənnasız qan donorlar şəbəkəsinin yaradılması layihənin əsas başlıca məqsədini təşkil edir.

Cari ildə AzQAC-n “Gənc könüllü qan donorlar qrupu 25” Bakının qrup üzvləri qan xəstəliklərindən əziyyət çəkən uşaqlarla birgə görüşlər təşkil etmişlər. 2013-cü il 6 sentyabr tarixində Az.QAC və Azərbaycan Milli QHT Forumu arasında imzalanan Memorandumun icrasının ilk addımı kimi hər iki təşkilatın gələcək qan donorluğuna dair fəaliyyətləri təşkil olunan dəyirmi masa ətrafında müzakirə edil-mişdir. AzQAC İcraçı katibi Bayram Vəliyev və Azər-baycan Milli QHT Forumunun İcraçı Direktoru Günel İbrahim hər iki təşkilatların ölkədə aparılan fəaliyyət-lərinə, əməkdaşlığına olmasına önəm verərək, gələcək fəaliyyətlərini daha da səmərəli olacağına ümüdvar olduqlarını bildirmişlər.

Cari ilin mart ayında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruz Aslanov başda olmaqla bütün qərargahın və Bakı Regional Mərkəzinə daxil olan bəzi Rayon Bölmələrinin əməkdaşları, gənc könüllülərə mütəmadi qan donorları il ərzində Mərkəzi Qan Bankı ilə birgə təşkil olunan qanvermə aksiyalarına qatılaraq, qan vermişlər. Azərbaycanda qan donorluğunun təbliğatı məqsədilə il ərzində müxtəlif təşkilatlar tərəfindən gənclər üçün “Gənc Qan donor məktəbi”, “Gənc qan donorlar üçün qış universiteti, Cəlilabad 2013” təşkil olunan tədbirlərdə, Az.QAC “Könüllü gənc qan donorlar qrupu - 25”-in üzvləri cəlb olunaraq, fəal iştirak etmişlər. İl ərzində keçirilən 8 təlimdə, 100-dən artıq gənc iştirak etmişdir. İl ərzində AzQAC “İcmaya əsaslanan sağlamlıq” proqramı çərçivəsində təşkil olunan tədbirlərdə 44000 nəfər əhali arasında Sağlam həyat tərzi, qan donorluğu, yol təhlükəsizliyi və digər mövzulara dair maarifləndirmə sahəsində fəaliyyətlər həyata keçirilmişdir. Qan donorluğuna aid 2000 ədəd əyani vəsait hazırlanmışdır. Respub-lika Qan Bankının verdiyi məlumata görə ölkə üzrə 2013-cü il ərzində 60 000 artıq insan könüllü surətdə qan vermişdir.





## İlk yardım

**Məqsəd:**

Əhalinin ekstremal şəraitlərdə, bədbəxt hadisələrdə və qəfil xəstəliklər zamanı xilas etmək, ixtisaslı həkim yardımı gələnədək onların ağrılarını azaltmaq.

**Fəaliyyətlər:**

İl ərzində 15 nəfər ilk yardım könüllüsünün iştirakı ilə Bakı, Ağdam, Füzuli, Mingəçevir və s. Şəhər və Rayon Bölmələrində əhali ilə görüşlər keçirilmiş və o cümlədən, (məktəblilər - 857, tələbələr - 1246) ilk yardım vərdişlərini 3.245 nəfər arasında aparılmışdır.

May ayında Beynəlxalq Qızıl Xaç Komitəsinin 17 nəfər işçisi üçün ilk yardım təlimi keçirilmişdir. Test üsulu ilə keçirilən imtahandan sonra onlara "Avropa sertifikatı" təqdim olunmuşdur. Həmin ayda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 16 işçisi üçün təlim keçirilmişdir. Bununla bərabər, Avstriya Qızıl Xaç Komitəsinin dəstəyilə həyata keçirilən layihəyə əsasən, İsmayıllı rayonunun iki kəndinin icma nümayəndəsinə təlim keçirilmişdir.

Cari ilin İyul ayında Bakı Slavyan Universitetinin 12 tələbəsinə ilk yardım vərdişləri öyrədilmiş və onlara sertifikatlar verilmişdir.

Sentyabr ayında münaqişə zonalarında yerləşən 16 Rayon Bölməsinin "Gənclərlə iş üzrə təlimatçılar"ına İlk Yardım təlimi keçirilmişdir. "Beynəlxalq İlk Yardım Günü" ilə əlaqədar Sumqayıtda (Nəsimi parkında) və Bakıda (28 Mall mərkəzində) tədbirlər keçirilmişdir.

Oktyabr ayında Avstriya Qızıl Xaç Komitəsinin dəstəyilə həyata keçirilən layihəyə əsasən İsmayıllı rayonunun iki kənd məktəbində 132 nəfər şagird və müəllim arasında maarifləndirmə işi aparılmışdır. Oktyabr ayının 21-dən 25-dək Ağdam rayon bölməsində 13 nəfər üçün ilk yardım təlimi keçirilmişdir. Noyabr ayının 4-dən 8-dək Tərtər rayon bölməsində 14 nəfər üçün ilk yardım təlimi keçirilmişdir.

Hesabat ilində 26-29 noyabr tarixlərində "Kempinski" mehmanxanasının 20 əməkdaşına təlim keçirilmişdir. Test üsulu ilə keçirilən imtahandan sonra onlara "Avropa sertifikatı" təqdim olunmuşdur.

Hesabat dövründə 3.509 nəfər əhali arasında bu sahədə maarifləndirmə işləri aparılmışdır.

2013-cü ildə növbəti dəfə AZ.QAC tibb işçisi Tərtər rayonundan olan tibbqardaşı Nurəddin Qaraşov Beynəlxalq "Florence Nightingale" medalı ilə təltif olunmuşdur.

2013-cü il iyunun 28-də Beynəlxalq Qızıl Xaç Komitəsinin Bakıdakı Baş Qərargahında Azərbaycan QAC könüllüsü, tibb qardaşı Nurəddin Qaraşova Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara hərəkatının ən yüksək mükafatı olan "FlorenseNaytingale" medalının təqdimetmə mərasimi keçirilmişdir. Təqdimat mərasimində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Vitse-prezidenti Qafar Əsgərzadə "Florense Naytingale" medalının təltifçisi Nurəddin Qaraşovun Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Tərtər Rayon Bölməsində 1999- cu ildən könüllü olaraq ilk yardım və ictimai sağlamlıq sahəsində, cəbhə bölgələrində fəaliyyətlərdə fəal iştirakından, bir humanist insan olaraq döyüşlərin ən qızğın getdiyi ərazilərdə belə yaralılara ilk tibbi yardım göstərməsindən, onlarla əsgər və dinc sakinlərini xilas edərək, yenidən həyata qaytarmasından söz açmışdır. Natiq daha sonra çıxışında statistikaya nəzər salaraq, dünyada, təxminən bu medala layiq görülən 1400 səhiyyə işçisindən 12-sinin Azərbaycanın payına düşdüyünü bildirmişdir. Mərasimdə Azərbaycanda yeganə kişi- tibb qardaşı məhz Nurəddin Qaraşovun olduğu vurğulanmış, cəmiyyətin prezidenti, millət vəkili Novruz Aslanovun təbrik və ürək sözləri ona çatdırılmışdır. Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinin Müdafiə Proqramının Koordinatoru Fransua Blandin Nurəddin Qaraşova öz təbriklərini çatdırmış, medalın yaranma tarixindən bəhs etmişdir.



# İNFORMASİYA VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR



**Məqsəd:**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətləri haqqında məlumatları KİV və ictimaiyyət arasında daha effektiv yaymaq, digər Milli Cəmiyyətlərlə əməkdaşlığın genişləndirilməsi üçün davamlı olaraq əlaqələr qurmaq.

**Fəaliyyətlər:**

Cari ilin aprel ayının 12-də Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti, Milli Məclisin Deputatı Dr. Novruz Aslanov ilə Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Nümayəndəliyinin Başçısı xanım Denis Düran arasında birgə layihələrin həyata keçirilməsinə dair Tərəfdaşlıq Razılaşması imzalanmışdır. Bu razılaşma hər iki təşkilata cəbhə bölgəsində yerləşən rayon və kəndlərdə yaşayan imkansız insanların humanitar ehtiyaclarını ödəmək imkanı verəcəkdir. Görüş zamanı həmçinin, birgə əməkdaşlığın səmərəliliyini təmin etmək üçün gələcək mexanizmlər və yollar da müzakirə edilmişdir. Qərara alınmışdır ki, birgə məsləhətləşmələr gələcəkdə həm hökumət strukturları həm yerli icra hakimiyyəti orqanları ilə münasibətlərdə Humanitar Diplomatiyanın effektiv vasitəsi ola bilər.

01-04 may 2013-cü il tarixlərində Tunis Respublikasının paytaxtı Tunis şəhərində BİAK-nin növbəti 3-cü məşvərətçi görüşü keçirilmişdir. Konfrans BİAK-nin və Tunis Qızıl Aypara Cəmiyyəti (TQAC) tərəfindən təşkil olunmuşdur. Konfrans "Humanitar Fəaliyyət Sahəsində Tərəfdaşlıq və Əməkdaşlıq" şüarı ilə təşkil olunmuşdur. Görüşdə müzakirə olunan əsas mövzular Beynəlxalq İslam Konfransı Təşkilatına daxil olan ölkələrin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri tərəfindən Beynəlxalq Humanitar Hüququn hansı səviyyədə yerinə yetirlməsi, bu cəmiyyətlərin fövqəladə hallarda risklərin azaldılması üzrə həyata keçirdikləri fəaliyyətlər, qeyri-qanuni miqrasiya problemlərinin həlli olmuşdur. Görüşdə əlavə müzakirə olunan mövzuda Şimali Kipr Türk Qızıl Aypara Cəmiyyətinin Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı tərəfindən rəsmən tanınması üzrə həyata keçirilən müzakirələr olmuşdur. Konfransda Beynəlxalq İslam Konfransı Təşkilatına daxil olan ölkələrin əksər Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin rəsmiləri iştirak etmişlər. Beynəlxalq Qızıl Xaç Komitəsinin, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının, Beynəlxalq İslam Fondunun nümayəndələri, aparıcı KİV nümayəndələri iştirak etmişlər. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) vitse-prezidenti Qafar Əsgərzadə və Cəmiyyətin İcraçı Katibinin müavini Bayram Vəliyev də görüşdə təmsil olunmuşlar. Tədbirdə çıxışlar zamanı ölkədə mövcud olan humanitar durum, hazırkı atəşkəs rejiminin həssaslığı, qaçqın və məcburi köçkünlərin problemləri, beynəlxalq humanitar hüququn ölkədə zəif təşkili və cəbhə bölgəsində daim bu hüququn pozulması vurğulanmışdır. Sonda Tunis deklarasiyası qəbul olunmuşdur.

Hərəkatın 150 illik yubileyi münasibətilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin təşkilatçılığı və Azərbaycan Texniki Universitetinin dəstəyi ilə 6 May 2013-cü il tarixində universitetin böyük akt zalında təntənəli yığıncaq keçirilmişdir. Həmin tədbirdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslanov, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Azərbaycanda kı nümayəndəsi Səbinə Məhbubi-İran və Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin başçısı Denis Düran iştirak etmişlər. Tədbirdə tələbələrin, həmçinin, Cəmiyyətin üzvləri və könüllüləri ilə birlikdə mətbuat konfransı keçirilmiş və maraq kəsb edən suallar cavablandırılmışdır. Eyni zamanda, həmin tarixdə Fəvvarələr meydanında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin könüllüləri tərəfindən flaşmob tədbiri keçirilmişdir.

05 avqust 2013-cü il tarixində İran Qızıl Aypara Cəmiyyətinin Baş Katibinin müavini, Sağlamlıq, Müalicə və Reabilitasiya şöbəsinin məsul nümayəndəsi Dr. Afşin Əlixani, Beynəlxalq Əməliyyatlar və Humanitar




Proqramlar üzrə Baş Direktor Davud Purxanəli və Beynəlxalq Şöbənin Ali işçisi Əli Pur Şəmsiyan Azərbaycan Qızıl Aypara Cəmiyyətində olmuşlar. Qonaqların səfərinin məqsədi İQAC və Az.QAC arasında uzun illərdən bəri mövcud olan əməkdaşlıq üzrə müzakirələrin aparılması, gələcəkdə daha geniş şəkildə birgə humanitar fəaliyyətlərin təşkili məsələləri olmuşdur. Bundan əlavə, Bakı şəhərində mövcud olan İran QAC-nin klinikasının fəaliyyəti də müzakirə mövzusu olmuşdur.

29 avqust 2013-cü il tarixində Az.QAC-nin Prezidenti Dr. Novruz Aslanov BQXK-nin Avrasiya üzrə Əməliyyatlar rəhbəri cənab Loran Korbanı qəbul etmişdir. Görüşdə Az.QAC və BQXK arasında uzun illər boyu formalaşmış yaxşı əməkdaşlıq təcrübəsi, hazırda birgə həyata keçirilən fəaliyyətlər və layihələr və s. üzrə müzakirələr aparılmışdır. Qeyd olunmuşdur ki, hazırda hər iki təşkilat arasında mövcud olan əməkdaşlıq mühiti yüksək səviyyədədir. Tərəflər 2009-cu ilədək mövcud olmuş BQXK və Azərbaycan Hökuməti arasında cəzaçəkmə müəssisələrinə baş-çəkmə üzrə rəsmi razılaşma sənədinin yenidən hazırlanaraq rəsmi qaydada qüvvəyə minməsi prosesi haqqında da müzakirələr aparmışlar.

06 sentyabr 2013-cü il tarixində Bakı şəhərində, "Divan Express" otelində Azərbaycan QAC və Milli Qeyri Hökumət Forumu (MQF) arasında tarixi əməkdaşlıq sazişi imzalanmışdır. Əməkdaşlıq sazişi Az.QAC-nin Prezidenti, Milli Məclisin Deputatı Dr. Novruz Aslanov və MQF-nin Prezidenti cənab Rauf Zeyni tərəfindən imzalanmışdır. İki qurum arasında imzalanmış rəsmi sənəd Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı, humanitar sahədə birgə əməkdaşlıq və birbiriilə əlaqələndirmə məqsədini daşıyır. Tədbirdə Az.QAC-nin Prezidenti, Milli Məclisin Deputatı Dr. Novruz Aslanov imzalanan sənədin həqiqətən də tarixi bir əməkdaşlıq aktının başlanğıc nöqtəsi olduğunu vurğulayaraq, Az.QAC ölkəmizin ən qocaman və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatından qaynaqlanan təcrübəyə malik olan bir qurum kimi MQF-da birləşən QHT-ra geniş sahədə təcrübəsini təqdim edə biləcəyini, həmçinin, Respublikada ən böyük QHT sayını özündə cəmləş-dirən nəhəng platform sayılan MQF də Az.QAC-nin humanitar istiqamətlərin də öz daxilində birləşdirdiyi ictimai-humanitar birlikləri səfərbər edə biləcəyini, eləcə də Respublikada dövlət tərəfindən bütün sahələrdə, o cümlədən vətəndaş cəmiyyətinin qurulması və inkişaf etdirilməsi istiqamətində həyata keçirilən nəhəng işlərin göz qabağında olmasını vurğulamışdır. Daha sonra natiq imzalanan bu sənədin tarixi və praktiki əhəmiyyətli olduğunu qeyd etmiş və bundan sonra da hər iki qurumun mütəxəssislərinin cəmləşəcəyi işçi qrupun yaradılacağına və bu işçi qrupun gələcəkdə böyük nailiyyətlərə imza atacağına ümidvar olduğunu bildirmişdir.

09 sentyabr 2013-cü il tarixində Az.QAC-nin Baş Qərargahında Milli Cəmiyyətin İcraçı Katibi Bayram Vəliyevlə Yaponiyanın Azərbaycandakı Səfirliyinin 1-ci Katibi, İqtisadi Əməkdaşlıq şöbəsinin rəhbəri cənab Takao İmanişi arasında görüş keçirilmişdir. Görüşün məqsədi Az.QAC-nin son illərdə Yaponiya səfirliyi ilə humanitar sahədə birgə həyata keçirdiyi infrastruktur layihələrinin davam etdirilməsi üzrə müzakirələr aparmaq olmuşdur. Görüşdə 2010-cu ildə Yaponiya Səfirliyinin dəstəyi ilə Qazax rayonunun cəbhə xəttinə yaxın ərazidə yerləşən Məzəm kəndində qurulmuş içməli su infrastrukturu xüsusi vurğulanmış, Şəmkir rayonunun Qasımalılar, Göyməmmədli və Çənlibel kəndlərində içməli su xətti sisteminin bərpasına yönələn infra-struktur layihəsinin də Yaponiya Səfirliyi tərəfindən yüksək dəstək









olacağına ümidvar olunduğu qeyd olunmuşdur. Az.QAC rəsmisi Yaponiya Səfirliyi ilə tərəfdaşlıq etməyə daima hazır olduğunu bildirmişdir.

17 sentyabr 2013-cü il tarixində Almaniyanın Azərbaycanda fəaliyyət gostərən Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin ofisində görüş keçirilmişdir. Gorüşdə Az.QAC tərəfindən İcraçı Katib Bayram Vəliyev, İnformasiya və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Seymur Hümbətov, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (Beynəlxalq Federasiya) Azərbaycandakı Nümayəndəliyinin rəhbəri xanım Səbinə Məhbubi-İran, Almaniyanın Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin ofis rəhbəri Aynur Əliyeva görüşdə iştirak etmislər.

Azərbaycan Respublikası Prezidenti yanında Qeyri Hökumət Təşkilatlarına Yardım Dövlət Şurasının maliyə dəstəyilə, “Təmiz Dünya” Qadınlara yardım İctimai Birliyi tərəfindən 20 sentyabr 2013 – cü il tarixində keçirilən “İnsan alveri və potensial qurbanların effektiv Reinteqrasiyası” adlı layihənin təqdimatında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İnformasiya və Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Seymur Hümbətov və Miqrasiya şöbəsinin müdiri Məmməd Kətanov ilə təmsil olunmuşdur. Layihə çərçivəsində insan alveri qurbanlarına dəymiş zərərin qiymətləndirilməsi meyarları hazırlanmış və hazırda ictimaiyyətə təqdim olunmuşdur.

30 sentyabr 2013-cü il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin təşəbbüsü ilə Bakı şəhərində, Milli Cəmiyyətin Baş Qərargahında Hərəkatın görüşü keçirilmişdir. Görüşün əsas məqsədi 2011-ci ildə İsveçrənin Cenevrə şəhərində Az.QAC, Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (Beynəlxalq Federasiya) tərəfindən 3 tərəfli qaydada imzalanmış əməkdaşlıq sazişinin qaydalarına uyğun şəkildə birgə həyata keçirilən fəaliyyətlərin və gələcək planların müzakirəsi olmuşdur. Görüşdə Az.QAC-nin İcraçı Katibi Bayram Vəliyev, Milli Cəmiyyətin İnformasiya və Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Seymur Hümbətov, BQXK-nin Azərbaycandakı Nümayəndəliyinin başçısı xanım Denis Duran, BQXK-nin Azərbaycandakı Nümayəndəliyinin başçısı xanım Denis Duran, BQXK-nin Əməkdaşlıq üzrə məsul nümayəndəsi Rasim Əlləzov, Beynəlxalq Federasiyanın Azərbaycandakı nümayəndəliyinin rəsmisi

xanım Səbinə Məhbubi- İran, İran Qızıl Aypara Cəmiyyətinin Bakı şəhərində fəaliyyət göstərən klinikasının Baş Həkimi Dr.Məhəmməd Nəqqaşi iştirak etmişlər. Görüşə Avstriya Qızıl Xaç Cəmiyyətinin Gürcüstanda yerləşən Regional ofisinin rəhbəri xanım Sonya Greiner də skype vasitəsilə qoşulmuşdur.

12 Noyabr 2013-cü ildə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının XIX Baş Assambleyası Avstraliyanın Sidney şəhərində təntənəli surətdə öz rəsmi açılışını reallaşdırılmışdır. Rəsmi açılış Avstraliya Qızıl Xaç Cəmiyyətinin təşkilatçılığı ilə gənclərin möhtəşəm rəqs və musiqi töhvəsi ilə yadda qaldı. Baş Assambleyanın gündəliyinə uyğun olaraq Humanitar sahədə çalışan ekspertlərin panel müdaxiləsi, Baş Assambleyanın gündəliyinin qəbulu, Beynəlxalq Federasiyanın bərabərhüquqlu üzvlüyünə yeni-188-ci Kipr Qızıl Xaç Cəmiyyətinin və Cənubi Sudan Qızıl Xaç Cəmiyyətinin rəsmən qəbul olunması, Beynəlxalq Federasiyanın Prezidentinin hesabatı, Beynəlxalq Federasiyanın idarə heyətinin hesabatı, Beynəlxalq Federasiyanın Baş katibinin hesabatı təqdim olunmuşdur. Baş Assambleyada Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Dr. Novruz Aslanovun rəhbərliyi ilə 4 nəfərlik nümayəndə heyəti iştirak etmişdir.

2013-cü dekabr ayının 10-da Beynəlxalq Qızıl Xaç Komitəsinin humanitar fəaliyyətinin 150 illiyi münasibətilə Milli İncəsənət Muzeyində fotosərginin açılış mərasimi keçirilib. Tədbirdə xarici qonaqlarla yanaşı, Azərbaycanlı iş adamları, Beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəlikləri dəvət olunmuşdurlar. Sərgidə Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı rəhbəri Denis Düran, 150 illiyi İsveçrənin Azərbaycandakı səfiri Paskal Obişer, çıxış etmişdir. Az.QAC-ın Prezidenti, Millət vəkili Novruz Aslanova verildi. Çıxışına rəsm sərgisi münasibətilə təbriklə başlayan Novruz Aslanov Az.QAC-ın və BQXK-nın arasında mövcud əməkdaşlıq haqqında söhbət açmışdır. Həmçinin, çıxışında əvvəllər çətin və iqtisadi cəhətdən zəif olan dönəmdə BQXK-nin Azərbaycana dəstək olduğunu xüsusi vurğulamışdır. Hal-hazırda iqtisadi və siyasi cəhətdən güclü olan Azərbaycan dövlətinin gələcəkdə də əməkdaşlıqlarının daha güclü olacağına ümid etdiyini bildirmişdir. Daha sonra çıxışında Az.QAC-ın fəaliyyətinə qısa nəzər salmışdır və Azərbaycan dövlətinin Az.QAC-nə dəstəyin sayəsində qəbul olunmuş Qanunvericilik aktlarından söz açmışdır. Baş tutan bu gözəl rəsm sərgisində AZ.QAC-nə humanitar sahədə donor olaraq yaxından əməkdaşlıq edən “12 MAY” şirkətinin təqdim etdiyi gözəl bir gülçələngi sərgiyə daha da rəng qatmışdır.

2013-cü ildə Yeni təfəkkür, Azərtac,Nəzər Media, Zəkat ve Ülviyyət, Vyshka, Qəzet və digər informaiya portallarına-220 meqalə, Televiziyaya (Aztv ,Space Tv, İctimai Tv, Xəzər Tv, Lider Tv.) -85 sujet gedib.

**Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsiplərinin və Beynəlxalq Humanitar Hüququn əsaslarının yayımı**

**Məqsəd:**

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının (BQX/QAH) tarixi və onun tərkibi , yəni Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası və Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin fəaliyyətləri, Hərəkatın Fundamental Prinsipləri, QızılXaç, Qızıl Aypara, və Qızıl Kristal emblemlərindən düzgün istifadə qaydaları, Beynəlxalq Humanitar Hüququn (BHH) əsasları haqqında məlumatları ictimaiyyət arasında yayılması və qorunması.

**Qısa tarixi**

BHH-un əsasları və BQX/QAH-ın fundamental prinsiplərinin yayımı Cenevrə Konvensiyalarına imza atmış dövlətlərin öhdəliklərindən biridir. Bu işin həyata keçirilməsi üçün Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri yaxından dəstək verir. Silahlı münaqişə zamanı insan hüquqlarının qorunmasına yönəlmiş BHH qaydaları 1949-cu ildə qəbul olunmuş Cenevrə Konvensiyaları və 1977, 2005-ci illərdə onlara əlavə olunmuş protokollarda öz əksini tapır. Yayım proqramı 1997-ci ildən BQXK-nin maliyyə və texniki dəstəyi ilə həyata keçirilir.

**Fəaliyyətlər:**

İl ərzində 1814 nəfər modul treyninq kursunu dinləmiş, 110 nəfər Bakı, Mingəçevir, Sumqayıt, Lənkəran, Sabirabad, Gəncə RM-nin könüllüləri isə



modul treyninqlə əlaqədar təlimatcı kimi hazırlanmışdır. Həmin təlimatçılar rayonlarda əhali üçün treyninqlər həyata keçirirlər.

2013-cü il ərzində1814 nəfərə Azərbaycanın Qızıl Aypara Cəmiyyətinin BHH və Fundamental Prinsiplərinin yayım sektoru tərəfindən maarifləndirici treyninqlər keçirilmişdir. Bu treyninqlərdə Bakı, Mingəçevir, Sumqayıt, Lənkəran, Sabirabad, Gəncə RM-nin könüllüləri təlimatçı kimi hazırlanmışdır. Həmin təlimatçılar rayonlarda əhali arasında treyninqlər həyata keçirirlər.

2013-cü il iyun ayının 18-dən 20-dək Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyilə, Cəmiyyətin cəbhə bölgələrində fəaliyyət göstərən 16 yerli bölməsində çalışan gənclər üzrə təlimatçılarına 2 dəfə 3 günlük geniş seminar keçirilmişdir. Seminarın əsas məqsədi gənclər üzrə təlimatçılara Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı, onun yaranması, tarixi, fəaliyyətləri, tərkib hissələri, fundamental prinsipləri, BHH, Az.QAC-nin yaranması, tarixi, fəaliyyətləri haqqında geniş məlumat vermək olmuşdur.Bu məlumatlardan istifadə edərək, gənclər üzrə təlimatçılar tərəfindən bölgələrdə insanlar arasında Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı haqqında məlumatları yayımlamaq imkanını verir. Seminarlarda Az.QAC-nin Yayım Sektorunun rəhbəri, Milli Cəmiyyətin və BQXK-nın ekspertləri və digərləri iştirak etmişlər.

15-16 İyul 2013-cü il tarixlərində Bakı şəhərində Beynəlxalq Qızıl Xaç Komitəsinin maliyyə dəstəyi, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Fandreyzinq və gəlir-gətirmə şöbəsinin təşkilatçılığı ilə "Regionlarda fandreyzinq və gəlir-gətirmə sahəsinin inkişaf etdirilməsi" ilə əlaqədar treyninq keçirilmişdir. Treyninqdə 7 regional mərkəzdən 14 nümayəndə iştirak etmişdir. Semnarda BHH-un əsasları və BQX/QAH-ın fundamental prinsiplərinin yayımı haqqında mövzuya geniş yer verilmişdir.

2013-cü il iyul ayında Az.QAC-nə Bakı Slavyan Universitetinin tələbələri istehsalat təcrübəsinə göndərilmişlər. Təcrübəyə gələn tələbələr üçün Cəmiyyət tərəfindən hazırlanan proqrama uyğun, müxtəlif sahələr üzrə, eləcə də BQX/QAH tarixi və onun tərkibi, Hərəkatın Fundamental Prinsipləri, Qızıl Xaç, Qızıl Aypara, və Qızıl Kristal emblemlərindən düzgün istifadə qaydaları, BHH əsasları haqqında məlumatlar və maarifləndirici seminarlar, tədbirlər təşkil olunmuşdur.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yayım sektoru tərəfindən 03.09.2013-cü il tarixində Bakı şəhərində yerləşən "Grand Hospital" özəl şəhər xəstəxanasının "Qızıl Aypara" emblemi, 05.09.2013-cü il tarixində özəl şəhər xəstəxanası olan "City Hospital" "Qızıl Xaç" emblemi, 20.09.2013-cü il tarixində özəl şəhər xəstəxanası olan "Ömür" klinikasında "Qızıl Aypara" emblemi, 01.11.2013-cü il tarixində özəl "AYSMED " klinikasında "Qızıl Xaç" emblemindən sui-istifadə halı aşkar olunmuşdur. Düzgün aparılan məlumatlandırma nəticəsində adı çəkilən özəl xəstəxanalar Azərbaycan Respublikası və Beynəlxalq Qanunvericiliyə uyğun şəkildə bilməyərəkdən sui-istifadə edilən "Qızıl Xaç" embleminin ambulanslardan, vizit kart, tv proqram reklamı və internet səhifəsindən çıxarılmasını təmin etmişdir.

2013-cü il noyabr ayının 11-12 tarixində Az.QAC işçi və könüllüləri Milli QHT Forumunun üzvü olan Azərbaycan Hemofiliya Assosiasiyasının üzvləri (uşaq və yeniyetmələr) üçün tədbirlər təşkil etmişlər. Şüvəlan qəsəbəsində yerləşən, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində "Cırtdan-bərpa-istirahət mərkəzində "Xüsusi qayğıya ehtiyacı olan insanlara qış düşərgəsi" layihəsi həyata keçirilib. Lahiyə çərçivəsində Hemofiliya Assosiasiyasının üzvlərinə BHH və Fundamental Prinsiplər mövzusunda təlim keçirilmişdir.

19 noyabr 2013 –cü ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin təşəbbüsü ilə Sumqayıt Regional Mərkəzinin mobil könüllü dəstəsi üçün Fövqəladə hallar zamanı hərəkət üzrə təkmilləşdirici təlim keçirilib. Təlimdə HH və Funda-mental Prinsiplərin yayımına əsas yer verilmişdir.

**Problemlər:**

Yayım materiallarının çap olunması üçün maliyyə vəsaitinin olmaması. Regional mərkəzlərdə yayım təlimatçılarının çatışmaması.



# TƏŞKİLATİ İNKİŞAF



**Məqsəd:**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarının gücləndirilməsi, Cəmiyyətin regional mərkəzlərinin, yerli bölmə və ilk təşkilatlarının maddi-texniki bazasının gücləndirilməsi vasitəsilə mərkəzi və yerli səviyyədə səmərəli və özünü doğruldan fəaliyyətləri həyata keçirmək məqsədilə, Azərbaycan Qızıl Aypara Cəmiyyətini milli və beynəlxalq müstəvidə zavallı insanlara dəstək olan güclü təşkilata çevirmək.

**Fəaliyyətlər:**

2013-cü il martın 12-də MTN-nin Mədəniyyət Mərkəzinin binasında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (Az.QAC) XXIV Baş Məclisi keçirilmişdir. Tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, beynəlxalq qurumların, eləcə də qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak etmişlər. Sonra Az.QAC-ın prezidenti, Milli Məclisin deputatı Novruz Aslanov hesabat məruzəsi ilə çıxış edərək, rəhbərlik etdiyi qurumun fəaliyyəti ilə bağlı tədbir iştirakçılarına geniş məlumat verib. Cəmiyyətin prezidenti Novruz Aslanov qeyd edib ki, 1920-ci ildə yaradılan Az.QAC ölkədə ən böyük sosial bazaya malik qeyri- hökumət təşkilatıdır. Həmçinin, Az.QAC-ın vitse-prezidentləri vəzifələrinə növbəti müddətə Ramazan Sultanov və Qafar Əsgərzadə seçilmişlər. Baş Məclis həmçinin 2013-cü ilin prezident seçkilərində Az.QAC-in fəxri üzvü cənab İlham Əliyevin prezidentliyə namizədliyini dəstəkləyən qərar qəbul etmişdir. Qərarı qəbul edən Baş Məclis iştirakçıları dövlət başçısının ölkənin sosial-iqtisadi inkişafı sahəsində gördüyü işləri yüksək qiymətləndirərək onun prezident seçkilərində qalib gəlməyə ən real namizəd olduğunu bildirmişlər. Sonda Cəmiyyətin işinə fəal adəstək verdiklərinə görə bir sıra şirkət, təşkilat nümayəndələri, həmçinin, Az.QAC-ın işçi və könüllüləri Cəmiyyətin fəxri fərmanları ilə təltif olundular.

2013-cü ilin əvvəlindən etibarən, QAC-ın bütün regional mərkəz və yerli bölmələrinin iş və tədbirlər planı tərtib edilərək təsdiq edilmişdir. Ötən ilin illik yekun hesabatları təhlil edilərək nəticələr müəyyənləşdirilmişdir.

2013-cü il ərzində rüblər üzrə Regional Mərkəz koordinatorları ilə mütəmadi görüşlər keçirilmiş, gündəlik təşkilati məsələlər diqqət mərkəzində saxlanılmışdır. Yerli bölmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, fəaliyyətlərinin gücləndirilməsi istiqamətində 55 yerli İcra Hakimiyyəti orqanına müvafiq məktublar və müraciətlər göndərilmişdir.

2013-cü ilin maliyyə planlarının rüblər üzrə ödənişinin təmin olunması daim diqqət mərkəzində saxlanılmışdır.

Cari il ərzində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bütün rayon, şəhər bölmələri tərəfindən əlamətdar günlər münasibətilə humanitar yönümlü, eləcə də müxtəlif tədbirlər keçirilmişdir. Belə ki, Cəmiyyətin yerli və sahə bölmələri "Novruz", "Ramazan" və "Qurban" bayramlarında, 8 mart "Beynəlxalq Qadınlar günü"ndə, təhsil bayramında və bir sıra başqa əlamətdar günlərdə ehtiyacı olan insanlar üçün xeyriyyə aksiyaları keçirmişlər. Dekabr ayının 3-də 1 dekabr "AIDS-lə mübarizə günü" və 5 dekabr "Beynəlxalq könüllülər günü" ilə əlaqədar geniş tədbir keçirilmişdir. Dekabrın 26-da Azərbaycan Qızıl Aypara Cəmiyyətinin təşkilatçılığı və "Pak Dad" restoranının sponsorluğu ilə uşaq evlərin-dən gətirilmiş kimsəsiz uşaqlara "Yeni il" münasibətilə əyləncəli tədbir keçirilmişdir.



Təhsil və Səhiyyə İdarələrində təşkilati məsələlərlə bağlı mütəmadi görüşlər keçirilmişdir. Müxtəlif idarə və müəssisələr tərəfindən daxil olmuş müraciətlərə baxılaraq, aidiyyatı üzrə müvafiq tədbirlər görülmüşdür.

Hər il olduğu kimi mərkəzi və yerli İcra Hakimiyyəti orqanları ilə iş birliyi və Cəmiyyətə göstə-rilən köməkliklər barədə "Hesabat" hazırlanaraq əlaqədar dövlət və hökumət strukturlarına təqdim olunmuşdur.

Bəzi rayon bölmələrinə internet xətti qoşulmuş, onlar yeni kompyuterlərlə və fax aparatları ilə təmin edilmişdir.

"12 MAY" Şirkəti ilə birgə Quba və Şabran rayonlarında "Ahıllar günü" münasibətilə tədbir keçirilmiş,həmçinin konsert proqramı təşkil edilmişdir.

31 dekabr "Dünya azərbaycanlılarının həmrəylik günü" münasibətilə bütün yerli bölmələr də tədbirlər keçirilmiş və zavallılara yardım payları verilmişdir.

**Nailiyyətlər:**

2012-ci ildə üzvlərin sayı 300256 nəfər təşkil etdiyi halda, 2013-ci ildə cəmiyyətin üzvlərinin sayı 341840 nəfərə, ilk təşkilatların sayı isə 12550-ə



çatdırılmışdır. Yerli bölmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə il ərzində bir neçə rayon bölməsi xidməti avtomobillə təmin edilmişdir. Eləcə də, 20 rayon bölməsi daxili imkanları çərçivəsində yeni kompyuterlər, fax aparatları və internet xəttləri ilə təmin olunmuşdur.

Sərlövhələr,vizit kartları, təqvimlər hazırlanmış və yerli bölmələrə təhvil verilmişdir.

"12 MAY" Şirkəti ilə birgə "Ahıllar günü" münasibətilə keçirilən tədbirdə Quba rayonunda 60, Şabran rayonunda 120, Yasamal rayonunda isə "12 MAY" Şirkəti ilə birgə tədbir keçirilmiş və zavallılara 70 ədəd humanitar yardım verilmişdir.

Suraxanı rayon bölməsində aztəminatlı və şəhid ailələri üçün ingilis və Azərbaycan dili kursları, həmçinin, riyaziyyat fənni üzrə kurs təşkil olunmuşdur. Təşkilat idarəsinin nəzarətində 53 yerli bölmə 100% maliyyə planını yerinə yetirmişdir.

**Problemlər:**

- Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Nizamnaməsinin yenidən çap etdirilərək istifadəyə verilməsi.
- Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yeni məlumat kitabçasının yenilənməsi.

**İlk təşkilatların sayı**




**Üzvlərin sayı**



# GƏNCLƏR VƏ KÖNÜLLÜLƏR

**Ümumi məqsəd:**

Qızıl Aypara Cəmiyyətində Gənclər və könüllülərin cəlbolunma idarəetmə sisteminin inkişaf etdirilməsi və bununla sosial çəhətdən zəif müdafiə olunan və qayğıya ehtiyacı olan əhaliyə könüllü xidmətin səmərəliliyinin artırılmasıdır.

**Fəaliyyətlər:**

2013 -cü ildə Beynəlxalq Federasiya tərəfindən ilin şüari "Gənclər fəaliyyətdədir" olub. Bu şüar ilə kütləvi aksiyalar, kompaniyalar,dəyirmi masa-lar, treyninqlər, kurslar və s. tədbirlər keçirilməsinə yanvar ayından start verilmişdir.

**Küçə və yollarda təhlükəsiz davranış vərdişlərinin təbliği**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 2011-2015-ci illər strategiyasına əsaslanaraq, Küçə və yollarda təhlükəsiz davranış vərdişlərini təbliğ etməklə əhali arasında "Piyadaların təhlükəsizliyi naminə" adlı təbliğat yönümlü tədbirlərin həyata keçirilməsi ilə əlaqədar il ərzində maarifləndirmə işləri aparılmışdır.Belə ki, bu tədbirlərin davamı olaraq, Az.QAC, "Azərbaycan Uşaq və Gənclər Sülh şəbəkəsi" və "SOS-Uşaq Kəndləri" təşkilatlarının nümayəndələri və könüllüləri piyadaların təhlükəsizliyi ilə əlaqədar əhalinin diqqətini cəlb etmək məqsədilə, Bakının mərkəzi küçələrində yürüş keçirmişlər. Yol boyunca könüllülər əhali arasında yol təhlükəsizliyi qaydaları və insanların bu qaydalara riayət etməsinin vacibliyi haqqında əyani vasitələrdən ( vərəqələr, piyadaları əks etdirən maketlər, nişanlar) istifadə edərək, təbliğat fəaliyyətini həyata keçirmişlər. Piyadaları əks etdirən maketlər könüllülər vasitəslə piyadaların yol keçməsi üçün zolaqlı yerüstü, yeralti keçidlər, avtobus dayanacaqları və s. kimi sahələrdə yerləşdirərək (fleşmob), insanların təhlükəsizliyi üçün bu yerlərdən istifadə edilməsinin vacibliyini bir daha nümayiş etdirmişlər. Eyni zamanda fərqlənən insanla-ra düzgün yol qaydalarına riayət edib, piyadalar üçün ayrılan yerlərdən istifadə etməsinə görə kiçik hədiyyələr təqdim edilmişdir. İl ərzində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Regional Mərkəzlər və yerli bölmələri vasitəsilə "Təhlükəsiz yol hərəkatı" layihəsi çərçivəsində təbliğat yönümlü tədbirlər uşaqlar və yeniyetmələr arasında davam etdirilmişdir.

31 dekabr "Dünya Aəzrbaycanlılarının həmrəylik günü" və yeni il bayramı ilə əlaqədar olaraq yanvarın 5-də 2013-ci il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyəti, "Pak Dad" restoranlar şəbəkəsi və Bakı Slavyan Universitetinin tələbələri tərəfindən xeyirxah məramlı aksiya keçirilmişdir. Aksiyada Suraxanı rayonunda yerləşən uşaq evinin sakinləri olan uşaqlar üçün bayram süfrəsi açılmış və rəngarəng musiqi proqramı təqdim olunmuşdur. Tələbələr tərəfindən uşaq evinin sakinlərinə öncədən hazırlanmış maraqlı viktorinalar və oyunlar təqdim olunmuş, onlara hədiyyələr verilmişdir. "Pak Dad" restoranı tərəfindən uşaqlara dadlı təamlar verilmişdir. Sonda Pak Dad restoranlar şəbəkəsi və Bakı Slavyan Universitetinin tələbələrinə Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Fəxri Fərmanlar, Tərifnamələr təqdim olunmuşdur.

Cari ildə Sumqayıt şəhərində 30 nəfər fiziki çəhətdən zəif olan və xroniki xəstə uşağa icma əsaslı yardım və həmyaşıd dəstəyi çərçivəsində 15 könüllü həftədə üç dəfə olaraq həmin əlil uşaqlara baş çəkmiş, onların xəstəlik kateqoriyasına əsaslanaraq, uşaqlara rəsm çəkməyi, kompyuter biliklərini, toxuculuğu və s. fəaliyyətlər həyata keçirməkdə və xəstə uşaqların təmiz havada gəzintiyə çıxarılmasında yardımçı olmuşlar. Avstriya Qızıl Xaçının dəstəyilə həmin uşaqlara 5 ədəd əlil arabası, 18 ədəd notebook hədiyyə edilmişdir.



Hesabat ilində “Novruz” bayramı ilə əlaqədar Sumqayıt şəhərində yerləşən fiziki cəhətdən zəif olan internat məktəbinin uşaqları üçün ümumilikdə, 220 uşağa 15 könüllünün iştirakı ilə tədbir keçirilmişdir. Tədbirdə könüllülər tərəfindən əlil uşaqlar üçün müxtəlif nağıl səhnəcikləri hazırlanmış və konsert proqramı, ziyafət təşkil edilmişdir. Onlara məktəb ləvazimatlarından ibarət bağlamalar da verilmişdir.

8 May tarixində “Ümumdünya Qızıl Xaç və Qızıl Aypara hərəkatı günü” ilə əlaqədar Azərbaycan Texniki Universitetində Qızıl Aypara Cəmiyyətinin Prezidenti, Beynəlxalq Qızıl Xaç Komitəsi və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Azərbaycandakı nümayəndəliklərinin başçılarının iştirakı ilə görüş, ardınca isə mətbuat konfransı keçirilmişdir. Tədbir musiqili-əyləncəli proqramla davam etdirilmişdir.

Bu münasibətlə Bakının Fəvvarələr meydanında Avropa Litseyinin 120 nəfər şagirdi tərəfindən flaşmob keçirilmişdir. Həmin flaşmobda Qızıl Xaç və Qızıl Aypara hərəkatının emblemləri həkk olunmuşdur. Eyni zamanda tədbir zamanı ilk yardım vərdişlərinin nümayişi də göstərilmişdir.



1 iyun “Uşaqların Beynəlxalq Müdafiəsi günü” ilə əlaqədar 280 kimsəsiz, fiziki və əqli cəhətdən zəif və köçkün uşaq üçün Gənc Tamaşaçılar Teatrında pulsuz olaraq “Yatmış gözəl” tamaşasına baxış təşkil edilmişdir. Sonra uşaqlar üçün yemək süfrəsi açılmış, hədiyyələr bağışlanılmışdır. Növbəti gün köçkünlərin məskunlaşdığı şəhərcikdə uşaqlar üçün bayram şənliyi təşkil olunmuşdur. Həmin tədbirdə eyni zamanda məktəbi bitirmiş 11-ci sinif şagirdləri üçün də “Son zəng” təşkil edilmişdir. Tədbir zamanı uşaqlara və 11-ci sinif şagirdlərinə Cəmiyyət tərəfindən hədiyyələr bağışlanılmışdır.

İyul ayında Şəki şəhərində Mustafabəy yay istirahət düşərgəsində Xocalı rayonundan olan köçkün uşaqlar üçün İngiltərənin **“**Ernest” və “Ynq” şirkəti tərəfindən 45 uşaq üçün 22 günlük yay istirahət düşərgəsi təşkil olunmuşdur.

07 avqust 2013-cü il tarixində “Halal süfrə” şadlıq sarayında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gənclər və Könüllülər şöbəsinin təşkilatçılığı, Fondların artırılması və gəlir-gətirmə şöbəsinin təşəbbüsü, “All Chicken” fast food mağazasının dəstəyi, könüllülər, Bakı Slavyan Universitetinin tələbələrinin iştirakı ilə Bakı şəhəri, Suraxanı rayonunda yerləşən 7 saylı xüsusi internat məktəbinin əqli və fiziki cəhətdən zəif olan sakinləri üçün xeyirxah aksiya keçirilmişdir. Tədbirdə Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən uşaqlara müxtəlif hədiyyələr – şirniyyatlar, idman ləvazimatları, stolüstü oyunlar, disklər, kitablar, oyuncaqlar verilmişdir.

Sabunçu rayonunda yerləşən 11 saylı xüsusi internat məktəbinin əqli və fiziki cəhətdən zəif olan uşaqları üçün də xeyirxah məramlı aksiya təşkil olunmuşdur. Uşaqlar üçün yemək süfrəsi açılmış və rəngarəng musiqi proqramları təşkil olunmus və hədiyyələr təqdim olunmuşdur.

17 oktyabr 2013-cü il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gənclər və Könüllülər şöbəsinin təşkilatçılığı, “Pak Dad” restoranlar şəbəkəsinin dəstəyi, Könüllülərin iştirakı ilə Bakı şəhərində yaşayan talassemiya xəstələri üçün xeyirxah aksiya keçirildi. Tədbirdə uşaqlar üçün yemək süfrəsi açılmış, rəngarəng musiqi proqramı təşkil olunmuşdur. Uşaqlara öncədən hazırlanmış klounlar tərəfindən müxtəlif maraqlı viktorinalar və oyunlar təqdim olunmuşdur. “Pak Dad” və “ Az.QAC” isə öz növbəsində uşaqlara müxtəlif hədiyyələr - şirniyyatlar, idman



ləvazimatları, stolüstü oyunlar, disklər, kitablar, oyuncaqlar, gigiyenik ləvazimatlar təqdim etmiş və tədbir iştirakçılarını müxtəlif dadlı təamlarla sevindirməyə nail olmuşdur.

16 noyabr 2013-cü il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gənclər və Könüllülər şöbəsinin təşkilatçılığı, "PakDad" restoranlar şəbəkəsinin dəstəyi, Könüllülərin, Az.QAC-ın və "PakDad"-restoranının əməkdaşlarının iştirakı ilə Bakı şəhəri, Nərimanov rayonunda yerləşən Bədən Tərbiyəsi və İdman Akademiyasının yataqxanasında məskunlaşan məcburi köçkün ailələrinin uşaqları üçün xeyirxah aksiya keçirilmişdir. "PakDad" restoranının dəstəyilə 70 uşağa yemək süfrəsi açılmış, Qızıl Aypara Cəmiyyəti tərəfindən uşaqlara xatirə olaraq müxtəlif hədiyyələr verilmişdir.

Cari ildə Suraxanı rayonunda yaşayan zavallı ailələrdən olan 20 uşağın davamlı təhsil almasına imkan yaradılması istiqamətində Azərbaycan Qızıl Aypara Cəmiyyəti və 12 May şirkəti birgə layihə həyata keçirir ki, həmin layihədə az təminatlı ailələrin uşaqları dəsrdən sonra dərslərinə kömək məqsədilə,4 fənn üzrə hazırlıq keçir. Həmin uşaqlar dərs ləvazimatları ilə təmin olunurlar.8 könüllü həmin uşaqlara Qızıl Xaç və Qızıl Aypara hərəkatının tarixi, fundamental prinsipləri, dəyərlər, HİV/AİDS, yol təhlükəsizliyi, qan ianəsi, zərərin azaldılması və ilk yardıma dair seminarlar təşkil edirlər. Bayram vaxtlarında könülülər tərəfindən konsert proqramları, viktorinalar, idman



yarışları təşkil olunur. Eyni zamanda onların dünyagörüşlərini artırmaq məqsədilə gəzintiyə, teatra, muzeyə aparırlar.

İl ərzində 1814 nəfər modul treyninq kursu keçirilmiş Bakı, Mingəçevir, Sumqayıt, Lənkəran, Sabirabad, Gəncə RM-nin 110 könüllüsü isə modul treyninqlə əlaqədar təlimatcı kimi hazırlanmışdır.

7 regional mərkəzin gənclərlə iş üzrə koordinatorları, icma proqramı çərçivəsində fəaliyyət göstərən könüllülərə və həmin rayonun gənclər üzrə təlimatçıları və könüllülər üçün ümümilikdə, 173 nəfərə lider treyninq kursları keçirilmişdir.

Cari ildə Bakı,Sumqayıt, Lənkəran, Gəncə, Mingəçevir rayonlarının uşaq evlərində fəaliyyət göstərən 135 nəfər könüllü üçün isə sosial treyninq keçirilmişdir.

## Könüllülərin sayı



## Mərkəzi və Regional Gənc Könüllülər Şurasının görüşləri

**Məqsəd:**

Mərkəzi və regional səviyyədə işçilər və könüllülər arasında əlaqələri yaxşılaşdırmaq. Daha yaxşı fəaliyyət göstərməsinə köməklik etmək və regional gənc könüllülər şurası yaratmaqla könüllülər üçün güclü idarəetmə sistemini təşkil etmək.

**Fəaliyyətlər:** İl ərzində Şuranın 3 görüşü keçirilmişdir:

Regional görüşlər isə: Sumqayıt RM-də 2dəfə, Mingəçevir RM-də 2 dəfə, Gəncə RM-də 2 dəfə, Lənkəran RM-də 2 dəfə, Bakı RM-də 2 dəfə, Sabirabad RM-də 2 dəfə. Umumilikdə, Mərkəzi və Regional Gənclər Şurasının 15 görüşü keçirilmişdir.

Cari ildə Bakı, Sabirabad, Sumqayıt, Mingəçevir, Lənkəran, Gəncə RM-rayon bölmələrinin könüllüləri üçün “Könüllülərin cəlb olunması kampaniyası keçirilmişdir.”

Tədbir kampaniya xarakteri daşımışdır. Tədbirlərdə regional mərkəzlərin və yerli bölmələrin könüllüləri, Mərkəzi Gənc Könüllülər Şuralarının üzvləri, Regional Mərkəzlərin gənclərlə iş üzrə koordinatorları, könüllülər və.s, ümumilikdə, 8100 nəfər iştirak etmişdir.

Hesabat ilində gənclər günü ilə əlaqədar Azərbaycan Dövlət Pedaqoji Universitetində dəyirmi masa təşkil olunmuş, gənclərin bugünkü problemləri, gələcək məqsədləri və digər məsələlər sahəsində bir neçə qrup çərçivəsində müzakirələr aparıldıqdan sonra qruplar tərəfindən təqdimatlar edilmişdir.

3 dekabr 2013-cü ildə “Park Bulvar” ticarət mərkəzində möhtəşəm tədbir keçirilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin rəhbərliyinin, Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinin, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətinin Azərbaycandakı nümayəndəliyinin və Respublika AİDS-lə mübarizə mərkəzinin məsul şəxslərinin və ictimaiyyətin iştirak etdiyi tədbirdə məşhur “Natiq Ritm qrupu”nun gənc nağaraçılar qrupu və populyar incəsənət ustalarının çıxışı olmuşdur. Sonda gənc könüllülər tərəfindən maarifləndirici broşur və bukletlər, sorğu vərəqələri paylanılmış, fəal könüllülərə Milli Cəmiyyətin Fəxri Fərmanları və həvəsləndirici mükafatları verilmişdir. Tədbirdə həmçinin, ev şəraitində yaşayan və tədbirə dəvət olunan bir neçə nəfər fiziki qüsurlu gəncə əlil arabaları verilmişdir.

Cari ildə 50 ədəd fincan, 200 qələm,200 ədəd sertifikat, diplom,200 ədəd mayka, 100 ədəd QAC-emblemini əks etdirən papaq, 200 ədəd QAC- nin loqosu hazırlanaraq proqram cərcivəcində keçirilən tədbirlərdə istifadə olunmuşdur. Bu da gənclərin və könüllülərin diqqətini cəlb edib, onları həvəsləndirir.



# İQTİSADİ TƏHLÜKƏSİZLİK

**Məqsəd:**

Cəbhə bölgəsində yaşayan icmalarda müharibənin insanlara vurduğu zərərin azaldılması üçün iqtisadi təhlükəsizliyi təmin etmek

**Fəaliyyətlər:**

2013-cü ildə də Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Qızıl Xaç Komitəsi İngiltərə Qızıl Xaç Cəmiyyətinin maliyyə dəstəyi ilə cəbhə xəttinə yaxın kəndlərdə müharibənin vurduğu zərər nəticəsində sonradan sosial-iqtisadi cəhətdən zəifləmiş icmalarda “İqdisadi Təhlükəsizlik” layihəsi davam etdirilmişdir. Layihə çərçivəsində cari ildə Ağdam, Tərtər, Goranboy, Qazax və Tovuz rayonlarından 11 kənddə əhalinin sosial-iqdisadi durumunun güclən-dirilməsi üzrə fəaliyyətlər həyata keçirilmişdir. Layihə çərçivəsində ehtiyaclı ailələrin və icmaların sosial durumu qiymətləndirilərək onların öz istək və bacarıqlarına görə müvafiq çərçivədə yardımlarla təmin olunmuşlar. Layihə çərçivəsində həyata keçirilən və insanlara edilən yardım haqqında məlumat aşağıdakılardır:

| | Rayonlar | Kəndlər | Nağd pul alanların sayı (ailəyə 1100 AzN) | Müdafiə divarları çəkilən ailələrin sayı | İcma Layihələri |
|---|---|---|---|---|---|
| 1 | Ağdam | Təzəkənd | 50 | | Tibb məntəqəsinin tikintisi |
| | | Əhmədağlı | 76 | | |
| 2 | Tərtər | Borsunlu | 62 | | İcma üçün xeyir/şər mağarı |
| | | Hüsənli | 92 | | |
| | | Həsənqaya | 25 | 5 | |
| | | Qapanlı | | 14 | |
| 3 | Tovuz | Alıbəyli | 106 | | Məktəb bufetinin və qoruyucu divarların tikintisi |
| | | Hacallı | 39 | | İcma üçün xeyir/şər mağarı |
| | | Mülkülü | 15 | | İcma üçün xeyir/şər mağarı |
| 4 | Qazax | Cəfərli | 13 | | İcma üçün xeyir/şər mağarı |
| | | Fərəhli | 24 | 3 | İcma üçün xeyir/şər mağarı |
| 5 | Goranboy | Tapqaraqoyunlu | 55 | **22** | |
| | **Cəmi** | | **557** | | **7** |

Qeyd etmək lazımdır ki, “İqtisadi Təhlükəsizlik” layihəsi 2011-ci ildən başlayaraq, İngiltərə Qızıl Xaç Cəmiyyətinin maliyyə dəstəylə həyata keçirilir. Layihə çərçivəsində 2013-cü ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Qazax və Tovuz rayon bölmələri yeni avtonəqliyyat vasitələri, kompyuter ləvazimatları və s. ilə təchiz olunmuşlar.

# FANDREYZİNQ VƏ GƏLİR- GƏTİRMƏ

**Məqsəd:**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (Cəmiyyət) maliyyə bazasının gücləndirilməsi məqsədilə maliyyə mənbələrini artırmaq.

**Fəaliyyət:**

İl ərzində şöbənin əsas fəaliyyəti Cəmiyyətin maliyyə bazasının gücləndirilməsi məqsədilə maliyyə mənbələrinin artırılması, ianəçilər tərəfindən edilən ianələrin toplanılması, eyni zamanda Cəmiyyətin strateji planına uyğun olaraq, müxtəlif şirkət və donorlarla əməkdaşlığın qurulması, mövcud olan işgüzar əlaqələrin inkişaf və davam etdirilməsindən ibarət olmuşdur.

Bu məqsədlə şöbə tərəfindən bir sıra şirkət, bank, ticarət və əyləncə mərkəzlərinin və s. obyektlərin məsul şəxsləri ilə işgüzar görüşlər keçirilmişdir ki, həmin görüşlərdə Cəmiyyətin missiyasına uyğun olaraq, Cəmiyyətlə mümkün ola biləcək əməkdaşlıq sahələri müzakirə edilmişdir.

2013-cü il ərzində Bakı şəhərinin müxtəlif yerlərində fəaliyyət göstərən bank, ticarət və əyləncə mərkəzlərində, müxtəlif ictimai iaşə obyektlərində yerləşdirilən Qızıl Aypara loqolu ianə qutularından yığım zamanı cəmi 25480,60 (iyirmi beş min dörd yüz səksən manat altmış qəpik) AZN məbləğində maliyyə toplanmışdır.

- Ahıllar günü və qurban bayramı münasibətilə keçirilən tədbirlərdə “12 May şirkəti” Az.QAC-la bağlamış olduğu müqaviləyə əsasən (işçilərdən əldə olunan gəlirin 10%-i Az.QAC-a ianə edilməli) 2000 AZN məbləğində pul vəsaiti Az.QAC-ın kassasına mədaxil edilmişdir.
- ”Pak Dad” restoranı ötən il ərzində kimsəsiz uşaqlarla keçirtdiyi tədbirlərdə ümumilikdə 6100 AZN məbləğində pul vəsaiti xərclənmişdir.
- “Səba Broyler” şirkəti Qurban bayramı münasibətilə keçirilən tədbirlərdə cəmi 1368 AZN dəyərində 60 ədəd ərzaq paketləri ilə Az.QAC-a dəstək olmuşdur.

*Nəticə etibarı ilə, 2012-ci illə müqayisədə 2013-cü ildə 7064 (yeddi min altmış dörd) AzN artım müşahidə olunmuşdur.*

İl ərzində aparılan danışıqlar zamanı “28 Mall” və “Azure” Ticarət Mərkəzləri ilə ianə qutularının həmin ticarət mərkəzlərində yerləşdirilməsinə razılıq əldə edilmişdir. Ümumilikdə, hər iki ticarət mərkəzində 12 ədəd ianə qutusu yerləşdirilmişdir.



Aparılan məhsuldar danışıqlar nəticəsində “Azeri Retail” şirkətinin tabeçiliyində fəaliyyət göstərən “Səbət” və “Frecso” marketlər şəbəkələrində, həmçinin, “Bon Appetit” şirniyyat mağazalar şəbəkələrində ianə qutularının yerləşdirilməsinə görə razılığın əldə edilməsinə nail olunmuşdur.

İanə qutularının müxtəlif məkanlarda yerləşdirilməsinin əsas məqsədi toplanan pul ianələri hesabına zavallı insanlara, yəni fövqəladə hallar və təbii fəlakətlər zamanı zərər çəkmişlərə, tənha qocalara, kimsəsizlərə və aztəminatlı insanlara müvafiq yardımlar etmək olmuşdur.

15-16 iyul 2013-cü il tarixində Bakı şəhəri, Nərimanov rayonunda fəaliyyət göstərən Beynəlxalq Qızıl Xaç Komitəsinin Bakı Nümayəndəliyinin maliyə dəstəyilə Az.QAC-ın Fandreyzinq və gəlir-gətirmə şöbəsinin regionlarda fandreyzinqin inkişaf etdirilməsi ilə əlaqədar treninqi keçirilmişdir. Treninq 6 regional mərkəzin (Bakı, Mingəçevir, Sumqayıt, Sabirabad,Gəncə, Lənkəran) nümayəndələrinin iştirakı ilə keçirilmişdir. İştirakçılara bu günə qədər fandreyzing və gəlir-gətirmə sahəsində görülmüş işlər haqqında məlumat verilmiş, həmçinin baş ofis əməkdaşlarının təcrübələri regional mərkəz nümayəndələri ilə bölüşülmüşdür. Treninqin sonunda isə görüş iştirakçılarının fikir və təklifləri dinlənilmiş, müzakirələr aparılmışdır.

1-4 sentyabr tarixlərində Az.QAC-ın maddi-texniki bazasının gücləndirilməsi işini aparan Fandreyzinq və gəlir-gətirmə şöbəsinin bilik və bacarıqlarını, təcrübələrini artırmaq məqsədilə İsveçrənin Cenevrə şəhərində Beynəlxalq Qızıl Xaç Komitəsinin baş

idarəsində görüş keçirilmişdir. Görüşdə Fandreyzinq və gəlir-gətirmə şöbəsinin müdiri Xalid Xəlilov və Baş Katibin müavini Ceyhun Mirzəyev iştirak etmişlər. BQXC-nin müvafiq şöbələrinin rəhbərləri ilə görüş zamanı onlar gəlir-gətirmə sahəsində illərlə əldə etdikləri təcrübələrini görüş iştirakçıları ilə paylaşmışlar.

4-7 sentyabr tarixlərində isə eyni məqsəd-lə, Az.QAC-ın iki nümayəndəsi Böyük Britaniyanın paytaxtı Londonda Britaniya Qızıl Xaçının təşkil etdiyi və hər il keçirilən "İnternational Fundraising SkillShare 2013" seminarında iştirak etmişdir. Bu seminarda da Fandreyzinq və gəlir-gətirmə şöbəsinin müdiri Xalid Xəlilov və Baş Katibin müavini Ceyhun Mirzəyev iştirak etmişlər. Seminarda gəlir-gətirmə sahəsindəki ən son metod-lar, yeniliklər haqqında məlumat verilmiş və təcrübələr mübadiləsi keçirilmişdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti 31 dekabr "Dünya Azərbaycanlılarının Həmrəylik günü" münasibətilə kimsəsiz qocalara yardım etmək üçün kampaniya keçirmişdir. Kampaniya zamanı 6107 AzN pul vəsaiti toplanılmış və müvafiq qaydada kimsəsiz qocalara bağalamalar şəklində paylanılmışdır. Həmçinin, 2 nəfərin müalicəsinə dəstək vermək məqsədilə müəyyən məbləğdə pul vəsaiti həmin iki nəfərin müalicəsinə yönəldilmişdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti ianə qutularının yerləşdirilməsində yaratdığı şəraitə görə aşağıdakılara öz minnətdarlığını bildirir:

- ✓ *Beynəlxlaq Bankın rəhbərliyinə və onun bəzi filiallarına;*
- ✓ *Park Bulvar Ticarət Mərkəzinin rəhbərliyi və Ticarət Mərkəzində fəaliyyət göstərən ayrı-ayrı mağaza, kafe, restoran, əyləncə mərkəzi və s. obyektlərə;*
- ✓ *Metro Park Ticarət Mərkəzinin rəhbərliyi və Ticarət Mərkəzində fəaliyyət göstərən ayrı-ayrı kafe və restoranlara;*
- ✓ *28 Mall Ticarət Mərkəzinin rəhbərliyi və Ticarət Mərkəzində fəaliyyət göstərən ayrı-ayrı kafe və restoranlara*
- ✓ *Azure Ticarət Mərkəzinin rəhbərliyi və Ticarət Mərkəzində fəaliyyət göstərən ayrı-ayrı kafe və restoranlara;*
- ✓ *ASB-nin Pak Bulvar Ticarət mərkəzindəki filialına;*
- ✓ *"Bon Appetit" şirniyyat mağazalar şəbəkəsinin rəhbərliyinə;*
- ✓ *"Çudo Peçka" mağazalar şəbəkəsinə;*
- ✓ *My Brends klubuna və kluba daxil olan ayrı-ayrı mağazalara;*
- ✓ *Favorit Market;*
- ✓ *Bakı Əyləncə Mərkəzinə;*
- ✓ *Səba broyler ASC-nin rəhbərliyinə və onun tabeçiliyində fəaliyyət göstərən "Al Chicken" fast fud restoranına;*
- ✓ *MUM-a;*
- ✓ *12 May şirkətinin rəhbərliyinə;*
- ✓ *NLT Telekom mağazalar şəbəkəsinə;*
- ✓ *Böyük Fırat restoranlar şəbəkəsinə;*
- ✓ *Sarı marketlər şəbəkəsinin rəhbərliyinə;*
- ✓ *Azeri Retail şirkətinin rəhbərliyinə və onun tabeçiliyində fəaliyyət göstərən "Səbət" və "Fresco" marketlərə;*
- ✓ *Makro marketlər şəbəkəsinin rəhbərliyinə;*
- ✓ *La Parfumerie mağazalarına;*
- ✓ *Ət və Süd məhsulları mağazasına;*
- ✓ *Bella 2;*
- ✓ *Days Hotel rəhbərliyinə;*
- ✓ *Sea Veaw Plazaya;*
- ✓ *Buta Gəncə Aptekin rəhbərliyinə;*

**Nailiyyətlər:**

Ötən illə (2012-ci illə) müqayisədə 2013-cü ildə ianə qutularından toplanılan ianələrin məbləğinin 2012-ci ildə toplanılan ianələrdən 7064 manat çox olması.

BQXK-nın Azərbaycan Nümayəndəliyi tərəfindən fandreyzinq sahəsinin inkişafına marağın artması. Yerlərdə 30-a yaxın yeni ianə qutusunun yerləşdirilməsi.

Fandreyzinq və gəlir-gətirmə sahəsində fəaliyyətlərin müvafiq qaydada həyata keçirilməsi üçün məlumat bazasının yaradılması, norma və standartların təkmilləşdirilməsi. BQXK-nın Bakı nümayəndəliyinin dəstəyilə BQXK-nın baş idarəsində görüş və Britaniya Qızıl Xaçının təşkil etdiyi və hər il keçirilən "İnternational Fundraising SkillShare 2013" seminarında iştirak edilməsi.



# İCMALARIN İNKİŞAFI




**Məqsəd:**

İcmaların inkişafı sektoru sosial və sağlamlıq faktorlarını nəzərə almaqla icmalarda imkansızlığın azaldılması, yerli bölmə strukturlarının və imkanlarının gücləndirilməsi.

**Fəaliyyətlər:**

Cari ilin avqust ayının 6-da Müqəddəs "Ramazan" bayramı münasibətilə Az.QAC Binəqədi rayon bölməsinin ofisində keçirilən tədbir zamanı Humanitar Yardım şöbəsi ilə birgə "Xirman" marketin maddi dəstəyilə Binəqədi rayon ərazisində yaşayan ahıl və tənha qocalara dəyəri 300 AZN olan 20 ədəd ərzaq bağlaması verilmişdir.

Sentyabrın 4-də bu münasibətlə Az.QAC-nin Nərimanov rayon bölməsinin ofisində keçirilən tədbirdə "Humanitar Yardım" şöbəsi ilə birgə Biləcəri kənd məscidinin maddi dəstəyilə ahıl və tənha qocalara dəyəri 300 AZN olan 20 ədəd ərzaq bağlaması verilmişdir.

Oktyabrın 1-də "Ahıllar günü" ilə əlaqədar Az.QAC-ın təşkilatçılığı, Quba və Şabran rayon İcra Hakimiyyətlərinin iştirakı və "12 MAY" Şirkətinin maddi dəstəyilə Quba və Şabran rayonlarında geniş tədbirlər keçirilmişdir.

Şabran rayonunda estrada müğənnilərinin iştirakı ilə təşkil olunmuş, musiqi proqramı ilə müşayiət olunan tədbirə təşrif buyurmuş ahıllara dəyəri 700 AZN olan 50 ədəd ərzaq yardımı verilmişdir.

Quba rayonunda tanınmış müğənnilərin iştirakı ilə təşkil olunmuş, konsert proqramı ilə müşayiət olunan tədbirdə iştirak edən ahıllara dəyəri 1500 AZN olan 100 ədəd ərzaq bağlaması verilmişdir.

Quba rayonunda keçirilən kütləvi humanitar aksiyaları və yerli bölmənin bu aksiyalarda fəal iştirakının nəticəsi olaraq, Quba Rayon İcra Hakimiy-yəti tərəfindən Az.QAC Quba rayon bölməsinə yeni ofis binası verilmişdir.

Hesabat ilində oktyabrın 2-də Yasamal rayonunda "Elit" şadlıq sarayında tanınmış müğənnilərin iştirakı ilə təşkil olunmuş, konsert proqramı ilə müşayiət olunan ahıl və tənha qocalara dəyəri 900 AZN olan 70 ədəd ərzaq bağlaması verilmişdir.

"İcmaların inkişafı" layihəsi çərçivəsində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Suraxanı rayon bölməsində "12 May" şirkətinin maddi dəstəyilə rayon bölməsinin ofisi təmir etdirilmiş, aztəminatlı və şəhid ailələri, eləcə də qaçqın və məcburi köçkün ailələri, ailə başçılarını itirmiş uşaqlar üçün 4 fənn üzrə tədris kursları açılmışdır. Həftədə iki gün keçiriləcək kurslarda uşaqlara 2014-cü ilin sonuna kimi Azərbaycan, ingilis və rus dilləri, eləcə də, riyaziyyat fənni tədris ediləcəkdir.

Oktyabrın 27-də Müqəddəs "Qurban" Bayramı münasibətilə Suraxanı rayonunda Az.QAC-ın Suraxanı rayon bölməsində "12 MAY" Şirkətinin maddi dəstəyilə ahıllar, tənha qocalar və aztəminatlı ailələrin uşaqları ilə görüş keçirilmişdir. Görüşdə əsasən aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin övladları üçün yaradılmış kurslar barəsində muzakirələr aparılmışdır. Görüşün sonunda ahıl və tənha qocalara qurbanlıq paylar, uşaqlara isə şirniyyat sovqatları paylanılmışdır.



# HUMANİTAR YARDIM



**Məqsəd:**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək, yardıma ehtiyacı olan ahıl, tənha - xəstə, qaçqın və məcburi köçkün ailələrə, aztəminatlı və təbii fəlakət-lərdən zərər çəkmiş zavallı insanlara müxtəlif formada köməklik göstərmək, humanitar dəyərləri rəhbər tutaraq insanlar arasında mərhəmət və xeyirxahlıq hisslərini aşılamaq.

**Fəaliyyətlər:**

Il ərzində Cəmiyyətin missiyasına aidiyyatı olan zavallı insanların yerli bölmələr üzrə sayının dəqiqləşdirilməsi və qeydiyyat siyahılarının tərtibi işi daima davam etdirilmişdir. Aztəminatlıların qeydiyyata alınması yerli bölmələrin özləri tərəfindən müvafiq kateqoriyalara uyğun müəyyənləşdilmişdir.

Bu gün təkcə Bakı Regional Mərkəzi üzrə 4000 nəfərə yaxın,digərRM-lər üzrə isə 8000 nəfərdən artıq ,ümumilikdə, 12000 nəfərə qədər yardıma və tibbi-sosial xidmətə ehtiyacı olan ahıl tənha, xroniki xəstə rayon bölmələrində qeydiyyatdadır.

### "Mərhəmət sorağında" pilot layihə:

Bakı şəhərində yaşayan və qeydiyyatda olan daha çox yardıma və tibbi – sosial qayğıya ehtiyacı olan bir qrup zavallılının rifahını qismən də olsa yaxşılaşdırmaq məqsədilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti cənab Novruz Aslanovun şəxsi maliyyə dəstəyi ilə 01 avqust 2008-ci il tarixindən başlanmış "Mərhəmət soragında" adlı pilot layihə 2013-cu ildə də davam etdirilmişdir.

Qeyd olunduğu kimi, layihənin həyata keçirilməsində əsas məqsəd zavallı insanlara zəruri ərzaq yardımı göstərmək, Katibliyin, yerli bölmə əməkdaşlarının, tibb bacılarının və könüllülərin gücünü səfərbər edərək tibbi - sosial xidmət sahəsinə yönəltmək olmuşdur.

"Mərhəmət sorağında" adlı pilot layihə hesabat ilində Bakı Regional Mərkəzinin strukturuna daxil olan 11 rayon bölməsi üzrə layihə çərçivəsində Cəmiyyətin prezidentinin təşəbbüsünə qoşulmuş yerli bölmə sədrlərinin şəxsi vəsaitləri ilə edilən yardımlar da nəzərə alınmaqla, ümumilikdə 47 zavallı insana hər ay zəruri ərzaq və tibbi - sosial xidmət üzrə yardım göstərilmişdir. 2013-ci il ərzində layihə çərçivəsində 564 nəfər qeydiyyatda olan aztəminatlıya 5.380 ma-natlıq zəruri ərzaq məhsulları ilə humanitar yardım göstərilmişdir.

Ümumilikdə layihənin əvvəlindən ötən müddət ərzində (avqust 2008-dekabr 2013) əhatə olunmuş 3290 nəfər aztəminatlıya 31556 manat məbləğində zəruri ərzaqla yardım edilmiş, təmənnasız olaraq 6 növ müxtəlif tibbi – sosial xidmətlər (qan təzyiqinin ölçülməsi, xəstəyə iynənin vurulması, təmizlik işlərinin aparılması, imkan olan dərmanla kömək və s.) göstərilmişdir.

Bakı Regional Mərkəzinin strukturuna daxil olan rayon bölmələrində layihənin uğurlu fəaliyyətini təsvir edən xüsusi guşələr tərtib edilmiş, Katiblikdə isə layihə ilə bağlı yaddaş foto albomu da yaradılmışdır. Cəmiyyətin rəhbərliyi tərəfindən bu humanitar layihənin əhatə dairəsinin gələcəkdə daha da genişləndirilməsi nəzərdə tutulur.

### Əməkdaşliq və humanitar tədbirlər:

Cari ildə respublikada fəaliyyət göstərən müxtəlif xarici , yerli humanitar və özəl təşkilatlarla əməkdaşlıq barədə müxtəlif səviyyədə işlər aparılması davam etdirilmişdir.

Hesabat ilində Azərbaycan QAC ilə səmərəli əməkdaşlıq edən İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyətinin Bakı şəhərində fəaliyyət göstərən klinikasının işini xüsusi qeyd etmək lazımdır.

Bu müddət ərzində İran Respublikasının Qızıl Aypara Cəmiyyətinin Bakı şəhərində fəaliyyət göstərən klinikasında 394 nəfər aztəminatlı xəstənin təmənnasız tam tibbi müayinə keçməsi üçün köməklik göstərilmişdir. Təmənnasız göstərilmiş tibbi müayinənin dəyəri 29.550 manat təşkil etmişdir.

Cəmiyyətin daim diqqətində olan zavallı insanların iştirakı ilə müxtəlif xeyriyyə tədbirləri və görüşlər təşkil olunmuşdur. Hesabat dövründə Azərbaycan QAC-in yerli bölmələri tərəfindən də ümumilikdə belə humanitar - xeyriyyə tədbirləri həyata keçirilmişdir. Bu tədbirlərdə yüzlərlə aztəminatlı zavallı insan, valideyin qayğısından məhrum olmuş uşaq iştirak etmiş, onlara müxtəlif yardımlar paylanılmış, onlar üçün süfrələr açılmış, əyləncəli proqramlar təşkil edilmişdir.

Qarşılıqlı əməkdaşlıq və tərəfdaşlıq çərçivəsində “12 MAY” Şirkəti ilə birlikdə bir sıra humanitar yönümlü xeyirhah tədbir həyata keçirilmişdir. Tədbirlər Bakı şəhərində və Respublikanın bir neçə bölgəsində yüksək səviyyədə həyata keçirilməklə gələcək səmərəli əməkdaşlığın davam etməsi üçün geniş imkanlar yaratmışdır.

**Nailiyyətlər:**

Hər il olduğu kimi 2013-cü ildə də Humanitar fəaliyyətdə əvvəlki illərə nisbətən keyfiyyətcə irəliləyişə nail olunmuşdur.

Hesabat illində tənha qocalara, xroniki xəstələrə, aztəminatlı ailələrə və məcburi köçkünlərə, ümumilikdə 24.908 nəfər zavallı insana 481.093 manat məbləğində humanitar yardım göstərilmişdir. Bu yardımlar müxtəlif mənbələrdən daxil olan vəsaitlər hesabına həyata keçirilmişdir:

- İanə qutularından, təmənnasız ayrılmış tibbi müayi-nə kartları, şəxsi vəsait və digər mənbəələrdən daxil olan vəsatin hesabına 958 nəfərə 34.930 manat məbləğində;

- QAC –nin yerli Bölmələrinin üzvlük haqqı və digər mənbələrdən daxil olan vəsaitlər hesabına 23.950 nəfər zavallıya 446.163 manat məbləğində humani-tar yardımlar edilmişdir.

**Problemlər:**

Humanitar Yardım məqsədilə lazım olan maliyyə vəsaitinin kifayət qədər olmaması.



| Humanitar yardımın mənbəyi | Humanitar yardımın növü | Əhalinin Kateqoriyaları | Yardım göstərilən insanların sayı | Məbləğ (AZ.N) |
|---|---|---|---|---|
| Şəxsi ianələr və s | Ərzaq , paltar və s. | Tənha qocalar, xroniki xəstələr, aztəminatlı ailələr,valideyin qayğısından məhrum olmuş uşaqlar | 564 | 5.380 |
| Azərbaycan QAC və İran QAC-nin Baki şəhərindəki klinikası | Təmənnasız tibbi müayinə və güzəştli aptek xidməti | Ahıl yaşlı,tənha kimsəsiz insanlar, aztəminatlı ailələr və məcburi köçkünlər | 394 | 29.550 |
| QAC şəhər,rayon, sahə bölmələrinin üzvülük haqqı və digər mənbədən daxil olan vəsaitlər | Ərzaq, paltar,məişət və sanitar, gigiyenik dəstlər və s. | Tənha qocalar, xroniki xəstələr, aztəminatlı ailələr və məcburi köçkünlər | 23.950 | 446.163 |
| | | **Cəmi:** | **24.908** | **481.093** |

# MİQRASİYA

**Məqsəd:**

Qaçqın və məcburi köçkünlərin problemlərini qismən də olsa aradan qaldırmaq, onlara lazım olan köməkliyi imkan daxilində həyata keçirmək. Onlar arasında tənha, kimsəsiz qocalara qayğı və mərhəmət göstərmək.

**Fəaliyyətlər:**

16 mart 2013-cü il tarixində Bakı şəhərinin Nərimanov rayonunda yaşayan tənha-kimsəsiz qocalara "Novruz" bayramı münasibətilət 15 ərzaq bağlaması təqdim olunmuşdur. Ərzaq bağlamaları Kapital Bankın 2 saylı Sabayıl Filialının əməkdaşları tərəfindən hazırlanmışdır. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin təşkilatçılığı və dəstəyilə ümumilikdə 15 nəfər ən kövrək qrupa aid olan tənha-kimsəziz qocalara yardım verilmişdir.

Cari ilin mart ayının 17-də Ağdamda "Novruz" bayramı münasibətilə Cəmiyyətin Miqrasiya şöbəsinin təşkilatçılığı, eyni zamanda "Azpetrol LTD MMC"-nin maliyyə dəstəyi və "Ulduz" şokolad fabrikinin təşəbbüsü ilə tənha kimsəsiz qocalara 20 bağlama zəruri ərzaq yardımları paylanılmışdır.

2013-cü il mart ayının 18-də "Novruz" bayramı münasibətilə Qaradağ rayonunda "Azpetrol LTD MMC"-nin maliyyə dəstəyi və "Ulduz" şokolad fabrikinin təşəbbüsü ilə tənha-kimsəsiz qocalara 15 bağlama zəruri ərzaq yardımları paylanılmışdır.

2013 –cü ilin iyun ayının 18-dən iyul ayının 08-dək Çinin Pekin və Urumçi şəhərlərində Çin Xalq Respublikasının Sənaye nazirliyinin maliyyə dəstəyi və Çin Qızıl Xaç Cəmiyyətinin təşlkilatçılıgı ilə keçmiş Sovetlər İttifaqı ölkələrinin Milli Cəmiyyətlərinin humanitar fəaliyyətlərinin artırılmasına" dair beynəlxalq seminar keçirilmişdir. Həmin seminarda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) əməkdaşları –İcmalarla iş sektorunu müdiri Elnur Hacıbabayev və Miqrasiya şöbəsinin müdiri Məmməd Kətanov iştirak etmişdirlər.

2013-cü il iyulun 22-də Milli Cəmiyyətin Baş Qərargahında Fövqaladə Hallara Hazırlıq və Cavabvermə, Sağlamlıq və Qayğı, Miqrasiya və Axtarış şöbələrinin rəhbərlərinin işçi qrupunun birgə görüşü keçirilmişdir. Görüşdə birgə həyata keçrilməsi mümkün olan perspektivli layihələr və fəaliyyətlərin həyata keçrilməsi, şöbələrin müvafiq yerli və beynəlxalq




praktiki xilasetmə və axtarış, miqrasiya, sağlamlıq və ilk yardım komponentlərini özündə birləşdirən treyninqlərdə iştirakı müzakirə edilmiş, AzQAC-nin Regional Mərkəzlərində mövcud olan Mobil könüllü dəstələrlə görüşlərin keçirilməsi qərara alınmışdır.

23 iyul 2013-cü il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Axtarış xidməti, Miqrasiya şöbəsi, Beynəlxalq miqrasiya təşkilatının miqrantların köçürülməsi proqramı üzrə koordinatoru arasında görüş keçrilmişdir. Görüşün məqsədi tərəflər arasında anlaşma Memarandumu əsasında əməkdaşlıq və koordinasiya əlaqələrinin inkişaf etdirilməsi olmuşdur.

2013-cü il Avqustun 5-də müqəddəs "Ramazan" bayramı münasibətilə "Azpetrol LTD MMC"-nin maliyyə dəstəyi ilə Nərimanov və Qaradağ rayonunda məskunlaşan qaçqın və məcburi köçkünlərə, tənha kimsəsiz qocalara 34 bağlama zəruri ərzaq yardımı paylanılmışdır.

11 sentyabr tarixində AzQAC əlaqələndirici işçi qrupunun üzvləri - Miqrasiya şöbəsinin müdiri Məmməd Kətanov, Sağlamlıq və qayğı şöbəsinin müdiri Mətanət Qaraxanova və miqrantlara Azərbaycan dilini tədris edən müəllimi Sona Hacıyeva, Qadın və Gənclər Mərkəzində növbəti görüş keçirmişlər. Görüş zamanı 100 nəfər əcnəbi məcburi qaçqın və köçkün arasında Azərbaycan dilini öyrənmək arzusu barədə keçirilmiş müxtəlif yaş həddində olan 32 nəfərin sorğusu araşdırılmışdır. 25-i qadın, 7-si isə kişi olan bu qrupda 17 nəfər əfqan, 9 nəfər çeçen, 2 nəfər iran, 2 nəfər iraq, 2 nəfər pakistanlı və 1 nəfəri suriyalı icma üzvləridir. Sorğunun nəticəsi olaraq, Azərbaycan dili, kompüter, psixoloji dəstək, hüquqi yardım təlimlərinin təşkil edilməsi qərara alınmışdır.

## Azərbaycan Qızıl Aypara Cəmiyyətinin miqrasiya şöbəsi əhatə dairəsini biraz da genişləndirdi



4 aprel 2013-cü il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Minalar Əleyhinə Azərbaycan Kampaniyası (Beynəlxalq Minalara Əleyhinə Kampaniyanın Azərbaycandakı nümayəndəliyi) "Ayağını borc ver" aksiyasına qoşulmuşlar.

2013-cü il oktyabr ayının 1-də Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) Baş Qərargahında miqrantlara təmənnasız Azərbaycan dili kursunun keçirilməsi ilə bağlı Layihənin təqdimat mərasimi keçirilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruz Aslanov miqrasiya məsələsinin bu gün ən aktual və önəm kəsb edən məsələ olduğunu vurğulamış, cəmiyyət tərəfindən bu sahədə görüləcək işlərdən söz açmışdır.

19 sentyabr 2013-cü il tarixində BMqT-nın Bakıda yerləşən nümayəndəliyində AzQAC-nin İcraçı Katibi Bayram Vəliyev və BMqT-nın Azərbaycanda fəaliyyət göstərən Nümayəndəliyinin rəhbəri cənab Serhan Aktoprak arasında görüş keçirilmişdir.

2013-cü il noyabr ayının 6-7 tarixində AzQAC-nin 7 Regional Mərkəzinin koordinatoru və AzQAC Naxçıvan Muxtar Respublikası Komitəsinin sədri üçün Beynəlxalq Miqrasiya Təşkilatının Bakı nümayəndəliyinin ofisində Cəmiyyətin 86 yerli bölməsində fəaliyyəti nəzərdə tutulan miqrasiya məsələləri ilə bağlı 2 günlük təlim keçirilmişdir. Təlimin keçrilməsində əsas məqsəd yerli bölmələrin nəzdində Miqrasiya informasiya mərkəzlərinin yaradılması olmuşdur.

19 dekabr 2013-cü il tarixdə Dövlət Miqrasiya Xidmətinin Aparatında Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti və Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında birgə əməkdaşlıq haqqında Razılaşmanın imzalanma mərsimi keçirilmişdir. Tədbirdə Dövlət Miqarsiya Xidmətinin rəis müavini, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Pərviz Musayev, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin vitse-prezidenti Qafar Əsgərzadə, Cəmiyyətin digər məsul şəxsləri yerli və beynəlxalq təşkilatların, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər. Əməkdaşlıq haqqında razılaşmanın əsas məqsədi Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən səlahiyyətləri daxilində razılaşmada qeyd olunan məsələlərin yüksək səviyyədə icrasını təmin etmək olmuşdur. Q.Əsgərzadə çıxışında imzalanan Razılaşmanın iki qurum arasında əməkdaşlıq əlaqələrinin genişləndiriləsinə öz töhfələrini verəcəyindən, bu sahədə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin rolundan bəhs etmişdir. O, həmçinin, Beynəlxalq Miqrasiya Təşkilatı ilə əməkdaşlıq əlaqələrini də xüsusi vurğulamışdır. Tədbirin sonunda Dövlət Miqrasiya Xidməti və Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında birgə əməkdaşlıq haqqında Razılaşma imzalanmışdır. Razılaşmanı Dövlət Miqarsiya Xidməti tərəfindən Xidmətin rəis müavini, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Pərviz Musayev və Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən isə vitse-prezident Qafar Əsgərzadə imzalamışlar.



# SİLAHLARA QARŞI MÜBARİZƏ

**Məqsəd:**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti (Az.QAC) Respublikada Silahlara (minalar, müharibənin partlayıcı qalıqları - MPQ) mülki əhali üçün yaratdığı humanitar problemlərin həllində fəaliyyət göstərən aparıcı təşkilat kimi, bu sahədə daha fəal təkimiləşmiş operativ bir qurum olaraq mina və partlamamış hərbi sursatlardan (PHS) zərər çəkmiş icmalarda Mina Risklərinin Azaldılması Mina üzrə Maarifləndirmə Mina MPQ Hadisələri və cəbhə bölgəsində yaşayan icmalarda müharibənin törətdiyi iqtisadi problemlərin aradan qaldırılması işində iqdisadi təhlükəsizliyin təmin olunması məqsədilə infrastruktura və s. humanitar yardım fəaliyyətlərinin təşkil olunması işini həyata keçirir.

**Fəaliyyət:**

Az.QAC və ANAMA arasında əməkdaşlıq Az.QAC və ANAMA arasında Mina/MPQ Hadisələri və Qurbanları eləcə də, Minadan Zərərçəkmiş İnsanlara Ehtiyacları Haqqında Məlumatların Toplanılması üzrə 2011-ci ildə imzalanmış rəsmi Razılaşma Memorandumuna əsasən, bu istiqamətdə təşkil olunan fəaliyyətlər ikitərəfli olaraq bu ildə də müvəffəqiyyətlə davam etdirilmişdir.

2013-cü ilin iyun-iyul aylarında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Silahlara Qarşı Mübarizə proqramı tərəfindən “Mina Partlayışı Zamanı Ailə Başçısını İtirmiş Ailələrə Sosial Dayaq” layihəsi Beyləqan rayonunda davam etdirilmişdir. Bu layihə “Mina Qurbanlarına Yardım” strategiyası çərçivəsində həyata keçirilir. Beyləqan rayonundan seçilmiş 10 ailə ilə yanaşı, bu ilin aprel ayında Qazax rayonunun Xanlıqlar kəndində 2 partlayış nəticəsində həlak olan 2 ailə başçısının ailəsinə də iri buynuzlu heyvanlar təqdim olunmuşdur. Bu il yardım edilən ailələrlə birlikdə ümumilikdə, 86 mina qurbanı ailəsi layihədən yararlanmışdır.

19 iyul 2013-cü il tarixində Az.QAC-nin İcraçı Katibi Bayram Vəliyevin təşəbbüsü ilə Milli Cəmiyyətin Baş Qərargahında koordinasiya görüşü baş tutmuşdur. Bu koordinasiya görüşü ölkə ərazisində minalar və partlamamış hərbi sursatların insanlara vurduğu zərər istiqamətində çalışan əsas qurumlar olan Azərbaycan Qızıl Aypara Cəmiyyəti, Beynəlxalq Qızıl Xaç Komitəsi, Azərbaycan Ərazilərinin Mina-lardan Təmizlənməsi Üzrə Milli Agentlik və Azərbaycan Minalar Əleyhinə Kampaniya arasında 2008-ci ildən başlayaraq müntəzəm surətdə təşkil olunur.

01-03 avqust 2013-cü il tarixlərində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Silahlara Qarşı Mübarizə proqramına məsul şəxs Ağstafa rayonuna səfər etmişdir. Səfərin məqsədi Az.QAC-nin Ağstafa Rayon Bölməsinin sədri və bölmənin digər əməkdaşları ilə görüşərək, bu ilin sonunda rayonda açılması nəzərdə tutulan Gənclər Mərkəzinin ərazisinin müəyyən edilməsi olmuşdur. Qeyd edək ki, Gənclər Mərkəzi müasir kompüter və mebel avadanlıqları ilə təchiz olunan bir otaq kimi nəzərdə tutulmuşdur ki, buraya Ağstafa rayonunun və digər rayonların gənclərinin gün ərzində giriş-çıxışı sərbəst olaraq təmin olunur. Hazırda Az.QAC-nin belə Gənclər Mərkəzləri Bərdə, Füzuli, Ağdam, Tərtər, Gədəbəy, Şəmkir, Gəncə, Goranboy və Ağcabədidə fəaliyyət göstərirlər.



8-10 noyabr 2013-cü il tarixlərində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Miqrasiya şöbəsinin müdiri, Silahlara Qarşı Mübarizə proqramına məsul şəxs Ağstafa rayonuna səfər etmişdir. Səfərin məqsədi Az.QAC-ın Ağstafa Rayon Bölməsi nəzdində Gənclər Mərkəzinin açılışı olmuşdur. Gənclər Mərkəzləri hələ 2005-ci ildən Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) maliyyə dəstəyi, Az.QAC-ın təşəbbüsü ilə Silahlara Qarşı Mübarizə proqramı çərçivəsində Milli Cəmiyyətin cəbhə bölgələrinə yaxın ərazilərdə fəaliyyət göstərən rayon bölmələrinin tərkibində yaradılır. Bu Gənclər Mərkəzlərində şəhid ailələri, az təminatlı ailələr, mina və digər silah qurbanlarının uşaqları təmənnasız surətdə təşkil olunmuş kompüter və ingilis dili kurslarına cəlb olunurlar. Eyni zamanda bu kurslar güzəştli ödənişlə digər ailələrdən olan gənclər üçün də təşkil olunur.

2013-cü ilin dekabr ayında “Bakı Paradis” mehmanxanasında ənənəyə sadiq olaraq, Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Qızıl Xaç Komitəsi birgə Beynəlxalq Qızıl Xaç Qızıl Aypara Hərəkatının Azərbaycanda “Silahlara Qarşı Mübarizə” istiqamətində həyata keçirdiyi fəaliyyətlərin yekununa dair görüş keçirmişlər. Görüşün məqsədi 2013-cu il ərzində Qızıl Aypara tərəfindən silahlara qarşı mübarizə proqramı çərçivəsində Respublika ərazisində həyata keçirilən fəaliyyətlərin yekununa dair hesabatın iştirakçılara təqdimatı, onun müzakirəsi və gələcək fəaliyyətlərin və layihələrin planlaşdırılması, ANAMA mütəxəssisi tərəfindən Milli Cəmiyyətin rayon bölmə sədrlərinə İMSMA (mina hadisələri və qurbanları haqda məlumatın toplanmasına dair xüsusi blank formaları) blankların doldurulması üzrə təqdimat vasitəsilə məşğələnin keçirilməsi olmuşdur.

22-27 dekabr 2013-cü il tarixlərində Tacikistan QAC-nin Silahlara Qarşı Mübarizə proqramının Koordinatoru Ulmaz Dövlətov Az.QAC-nin Silahlara Qarşı Mübarizə proqramı çərçivəsində həyata keçirilən fəaliyyətlərlə tanış olmaq məqsədilə ölkəmizə səfər etmişdir. 23 dekabr 2013-cü il tarixində qonaq Az.QAC-nin Baş Qərargahında olmuşdur. Qonağı Az.QAC-nin Vitse-Prezidenti Qafar Əsgərzadə qəbul etmiş, Cəmiyyətin fəaliyyəti və görülən işlər barədə ona ətraflı məlumat vermişdir.



# AXTARIŞ XİDMƏTİ

**Məqsəd:**

Bir-birindən ayrı düşmüş ailə üzvlərinin əzab və iztirablarını azaltmaq, psixoloji köməklik göstərmək, fövqəladə hallar zamanı və ondan sonra əldə edilən lazımi məlumatları ailə üzvləri arasında mübadilə etmək və həmcinin, bir-birinə qovuşdurmaq məqsədi daşıyır.

**Fəaliyyətlər:**

- Mütəmadi olaraq ərizəcilərin qəbulu;
- II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı;
- Miqrasiya ilə baglı axtariş;
- Axtarış və sosial problemlərin həlli üçün hüquqi məsləhətlərin verilməsi;
- Sosial problemlərin həlli üçün sənədlərin axtarışı;
- AX-nin fəaliyyəti barədə RM və RB-ri vasitəsilə yayımı.

**KİV ilə əməkdaşlıq:**

2013-cü ildə bir sıra KİV-lə birgə əməkdaşlığın davamına dair görüşlər kecirilmişdir.

Azərbaycan Televiziyası və Radio Verilişləri QSC-də radio proqramlarında Axtariş Xidmətinin fəaliyyəti barədə məlumatlar verilmişdir.

Rusiyanın "ORT" telekanalında yayımlanan "Jdi menya" verilişi ilə əməkdaşlığımız telefon və elektron poçt vasitəsilə davam etdirilmişdir.

"Minval" qəzeti 1, Vışka qəzetində AX-nin fəaliyyətini işıqlandıran 4 məqalə çap edilmişdir.

**Dövlət strukturları ilə əməkdaşliq:**

Az.QAC Axtarış Xidmətinin birgə əməkdaşlıq etdiyi əsas dövlət strukturları:

1) Daxili İşlər Nazirliyi.
2) Milli Təhlükəsizlik Nazirliyi.
3) Nazirlər Kabineti nəzdində Dövlət Arxiv İdarəsi.
4) Bakı Şəhər İcra Hakimiyyəti.
5) Respublika Prokurorluğu.
6) Dövlət Səfərbərlik və Hərbi Çağırış Xidməti.
7) Qaçqınlar üzrə Ali Komissarlıq.
8) Qaçqınların və Məcburi köçkünlərin işləri üzrə Azərbaycan Respublikası Dövlət Komitəsi.
9) Telefon – məlumat xidməti və sair dövlət təşkilatları. (təhsil, kecmiş iş yerləri və s.)



**Görüşlər:**

İl ərzində mütəmadi olaraq BQXK-nin axtarış üzrə nümayəndələri ilə görüşlər kecirilmişdir.

27-28 iyun tarixində Moskva şəhərində MDB ölkələrinin Milli Cəmiyyətlərinin AX-nin rəhbərləri və Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndələrinin iştirakı ilə miqrasiya məsələlərinə dair görüş keciril-mişdir. Bu görüşün keçirilməsində məqsəd, BMT-nın Bakıdakı əməkdaşları ilə birğə görüş və qaçqınlar üçün Azərbaycan dili kurslarının yaradılması olub. Həmçinin, BMT-nın əməkdaşları AX-nin fəaliyyəti ilə tanış olmuşlar.

"Həyat" Beynəlxalq Humantar Təşkilatının nəzdində təşkil olunmuş Gənclər və Qadın mərkəzində Əfqanistan, İran, Pakistan, Suriya, Ərəb ölkələrindən olan 60 miqranta, onların sosial problemlərinin müəyyən edilməsi məqsədilə ankent doldurulmuşdur. Miqrantlar AX-nin fəaliyyətilə taniş olmuşlar.

Beynəlxalq Miqrasiya Təçkilatı və AzQAC axtarış xidməti arasında görüş həyata keçirilmişdir. Görüşdə məqsəd, miqrasiya və fövqəladə hallara dair işçi qrupunun yaradılması olmuşdur. Axtarış xidməti işçi qrupunun tərkibində fövqəladə hallar zamanı fəaliyyət planının hazırlanması zamanı bütün görüşlərdə iştirak etmiş və axtarış xidməti öz planını təqdim etmişdir. Həmin plan, bir hissə kimi fövqəladə hallar planıına daxil edilmiçdir.

20-21 avqust 2013 tarixində fövqəladə hallara hazırlıq, fövqəladə hallar zamanı və sonra axtarış xidmətinin fəaliyyəti mövzusunda cəbhə xətti və fövqəladə hallarda risk zonaları olan rayon bölmələrinin sədrləri üçün treyninq keçirilmişdir. Treyninqdən sonra qalan maddi vəsait hesabına fövqəladə hallar zamanı axtarış xidmətinin konkret addımlarını təsvir edən təhsil yönümlü çap materialları (plakat) nəşr

olunmuşdur. Plakatlar treyninq iştirakçılarına paylanılmışdır.

**Fəaliyyətimiz**

Aprel ayında Bakı Slavyan Universitetinin beynəlxalq münasibətlər fakultəsinin 24 tələbəsi üçün AX-nin fəaliyyəti haqqında seminar keçirilmişdir.

Noyabr ayında fövqəladə hallara dair treyninq keçirilmişdir. Axtarış xidmətinin rəhbəri həmin treyninqdə iştirak etmişdir.

**Regional Mərkəzlər / Yerli bölmələr**

1. İl ərzində Bakı, Sumqayıt, Lənkəran, Mingəçevir, Sabirabad, Gəncə Regional Mərkəzlərinin və Naxçıvan Muxtar Respublika Komitəsinin sədrləri ilə dəfələrlə görüşlər keçirilmiş, onlara mütəmadi olaraq sorğu blankları paylanılmışdır. Həmçinin, bir çox yerli bölmə sədri ilə axtarış işlərilə bağlı telefon əlaqəsi yaradılmış, məsləhətlər verilmişdir.

2. Bütün RM-nə plakatlar və bukletlər paylanılmışdır.

**Statistik hesabat:**

2013-cu il ərzində daxil olmuş sorğular

*Açılmış işlər: -54*

*Azərbaycan daxili - 34*

| | |
|---|---|
| Miqrasiyaya dair axtarış | 17 |
| İİ Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 1 |
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | 4 |
| Münaqişə nəticəsində itirilmiş sənədlərin axtarışı | 2 |
| Cəmi: | 24 |

*Xaricdə - 20*

| | |
|---|---|
| Miqrasiyaya dair axtarış | 17 |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 3 |
| Cəmi: | 20 |

*2013-cu il ərzində bağlı işlər - 51*

| | | |
|---|---|---|
| Miqrasiya nəticəsində itgin düşənlərin axtarışı | 17 müsbət | 27 mənfi |
| Miqrasiya nəticəsində itgin düşənlərin axtarışı (alimenti) | | 1 mənfi |
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | 2 müsbət | 2 mənfi |
| Miqrasiyaya dair sənədlərin axtarışı | | |
| Münaqişə nəticəsində itirilmiş sənədlərin axtarışı | 2 müsbət | |
| Cəmi: | 21 | 30 |

*Ailə məktubu - 11*

# MALİYYƏ HESABATI

Gəlirlərin təhlili göstərir ki, Az.QAC üzrə ümumi gəlirlər 2013-cü ildə 1622471.32 manat təşkil etmişdir. Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən maliyyələşdirilən tədbirlər 2013-cü ildə 22005 manat təşkil edib və bu Az.QAC-ın gəlirlərin 1,4 %-dir ki, bu da 2012-cu ilə nisbətdə 0,3 % azlma tempi müşahidə olunmuşdur. Beynəlxalq Federasiyadan daxil olan vəsait 20000 manat təşkil edir və bu gəlirlərin 1,2 %-dir. 2013-cü ildən "İqlim" və "Təhlükəsiz və möhkəm İcmaların qurulması" proqramları da həyata kecirilir. Bu iki proqram tətəfindən daxil olan vəsait 96451 AzN təşkil edir və bu da Az.QAC-ın gəlirlərinin 6%-ni təşkil edir.

Beynəlxalq Federasiyadn, Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Nümayəndəliyindən, digər donorlardan, daxil olmuş vəsaitlər 100% həmin donorlarla razılaşdırılmış proqramların yerinə yetirilməsinə yönəldilmiş, təyinatı üzrə xərclənmiş və sözü gedən donorların maliyyə hesabat prosedurlarına uyğun olaraq hazırlanmışdır. Eləcə də Az.QAC ilə ikitərəfli həyata keçirilmiş layihələrdə hesabat vermə qaydaları şəffaflığın qorunması və artırılması ilə bağlı olaraq, həmin donorların istəklərinə uyğun müvafiq qaydada həyata keçirilmiş və mütəmadi monitorinqlər zamanı heç bir neqativ hallara rast gəlinməmişdir.

Az.QAC hesabına edilən yardımlar ildən ilə artır və 2013-cü ildə 63277,60 manat təşkil edib ki,bu da cəmiyyətin ümumi xərclərinin 3,9%-nə bərabərdir. Qeyd etmək lazımdır ki, Fondreyzing (ianə qutularından və ayrı-ayrı şəxslərdən ianələr) 2012-ci illə nisbətdə 2013-cü ildə 42305,60 manat təşkil edib və ötən illə müqaisədə 1,5 % artıb. Bununla yanaşı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 31 dekabr "Dünya Azərbaycanlılarının Həmrəylik günü" münasibətilə və Somaliyə yardım kompaniyaları da kecilirilmişdir.

2013-cü il ərzində bütün regional mərkəzlərə Maliyyə Nazirliyinin nəşr etdirdiyi mühasibatlıq işlərinin qurulmasına dair təlimatlar paylanılmışdır. Eləcə də, cari il ərzində yerli bölmələrin büdcə ilə hesablaş-malarına nəzarət olunmuş, bölmələrin DSMF və yerli vergi orqanları ilə hesablaşmaları uyğun aparılması müşahidə olunmuşdur.

2013-cü ildə maliyyə-təsərrüffat fəaliyyətlərini 100%-dən artıq yerinə yetirənlər: Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Pedaqojı Universiteti, Qusar, İmişli, Şirvan, Zərdab, Masallı, Astara, Mingəcevir, Ucar, Qəbələ, Balakən, Qax, Şəki, Yevlax, Ağdaş, Qazax, Tovuz, Tər-tər, Gorandoy bölmələridir. Adı çəkilən rayon,şəhər və sahə bölmələri il ərzində nümunəvi maliyyə-təsərrüffat fəaliyyətləri göstərmişlər.






| | Gəlirlər bölməsi | manatla | faizlə |
|---|---|---|---|
| | O cümlədən (cəmi) | 1,622,471.32 | 100% |
| 1 | Beynəlxalq Federasiya (Vərəm və qan donorluğu) | 20,000.00 | 1.2% |
| 2 | Beynəlxalq Qızıl Xaç Komitəsi ( BQX/QAH yayım, Axtarış,İlk Yardım, Fövqəladə Hallar, Eco-Sec) | 22,005.00 | 1.4% |
| 3 | AR Büdcə vəsaiti | 735,581.00 | 45.3% |
| 4 | Üzvlük haqlarından (respublika üzrə) | 683,716.00 | 42.1% |
| 5 | İqlim proqramı | 23,325.00 | 1.4% |
| 6 | Avstriya QX | 73,126.00 | 4.5% |
| 7 | Şoken fond | 1,440.72 | 0.1% |
| 8 | "12 may" şirkəti | 2,000.00 | 0.1% |
| 9 | Suriya yardım kompaniyası | 7,000.00 | 0.4% |
| 10 | 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günü ilə bağlı kompaniya | 6,107.00 | 0.4% |
| 11 | Fandreyzinq (ianə qutularından),müəssisə və təşkilatlardan,ayrı-ayrı şəxslərdən,şəxsi ianələrdən | 42,305.60 | 2.6% |
| 12 | Sair gəlirlər | 5,865.00 | 0.4% |




| | Xərclər bölməsi | manatla | faizlə |
|---|---|---|---|
| | O cümlədən (cəmi) | 1,620,967.72 | 100% |
| 1 | Beynəlxalq Federasiya | 20,000.00 | 1.2% |
| 2 | Beynəlxalq Qızıl Xaç Komitəsi ( BQX/QAH yayım, Axtarış,İlk Yardım, Fövqəladə Hallar, Eco-Sec) | 22,005.00 | 1.4% |
| 3 | AR Büdcə vəsaiti | 735,578.00 | 45.4% |
| 4 | İqlim proqramı | 23,300.00 | 1.4% |
| 5 | Avstriya QX | 73,092.00 | 4.5% |
| 6 | Şoken fond | 1,440.72 | 0.1% |
| 7 | Az.QAC tərəfindən həyata keçirilmiş humanitar aksiyalar (respublika üzrə) | 231,078.00 | 14.3% |
| 8 | Təsərrüfat xərcləri,büdcə ilə hesablaşmalar, əmək haqqı xərcləri (respublika üzrə) | 222,384.00 | 13.7% |
| 9 | Sair (Bank xidmətləri,təsərrüfat xərcləri, müavinətlər, ezamiyyə xərcləri və inzibati xərclər) | 56,036.00 | 3.5% |
| 10 | Az.QAC könüllülərinin il ərzində göstərdikləri xidmət (respublika üzrə) | 236,054.00 | 14.6% |

# Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsipləri

## Humanizm

Ayrı-seçkilik etmədən döyüş meydanlarında yaralılara yardım göstərmək zərurətindən yaranmış Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı istər Beynəlxalq , istərsə də milli səviyyədə hər hansı bir şəraitdə insan iztirablarının qarşısını almağa və onları yüngülləşdirməyə çalışır. Hərəkat, insan həyatı və sağlamlığını qorumaqla yanaşı, insan şəxsiyyətinə hormətlə yanaşmağı da himayə etmək məqsədi güdür. O, bütün xalqlar arasında qarşılıqlı anlaşma, dostluq, əməkdaşlıq və möhkəm sülh olması üçün çalışır.

## Qərəzsizlik

Hərəkat heç kəsə dini, irqi, milli xüsusiyyətlərinə, sinfi mənsubiyyətinə, siyasi əqidəsi və sosial mövqeyinə görə fərq qoymur. O, insanların duşdukləri əzab-əziyyətin ölçüsünə görə yardım edir. İlk növbədə ən ağır bəlalara düçar olanların köməyinə tələsir.

## Neytrallıq

Hər bir kəsin ona olan inamını qoruyub saxlamaq məqsədilə, hərbi münaqişələrdə heç bir tərəfi müdafiə etməyərək, duşmənçiliyə qarışmır, siyasi, irqi, dini və ideoloji mübahisələrdə bitərəf mövqe nümayiş etdirir.

## Müstəqillik

Hərəkat müstəqildir. Öz insansevərlik fəaliyyətində mövcud hakimiyyətə yardımçı olub, ölkəsində hakim olan qanunlara tabe olmaqla Milli Cəmiyyətlər öz muxtariyyətlərini qoruyub saxlayırlar ki, bu da onlara Qızıl Xaç və Qızıl Aypara hərakatının prinsipləri ilə işləmək imkanı verir.

## Könüllü xidmət

Hərəkat heç bir maraq güdməyən könüllü yardım müəssisəsidir.

## Vahidlik

Bir ölkədə yalnız bir Qızıl Xaç və ya Qızıl Aypara Cəmiyyəti ola bilər. Onun qapıları hamının üzünə açıqdır və öz insansevərlik fəaliyyətini ölkənin bütün ərazisində həyata keçirir.

## Universallıq

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı ümumbəşəri, universal bir qurumdur ki, bu qurumda bütün Cəmiyyətlərin bərabər hüquqları vardır və onlar bir-birilərinə kömək etməyə borcludular.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti
AZ1022 Bakı şəh. Səməd Vurğun küç. 112
Tel.: (+994 12) 493 84 81
Faks: (+994 12) 493 15 78
E-mail: redcrescent@redcrescent.az
www.redcrescent.az